25_27 IYUl-QARA.qxd 7/9/2026 10:04 PM Page 1

UNIKAL

№25 (2305) 10 iyul 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Əhalinin sağlamlığını təhdid edən klinikalar: Ciddi nöqsanlar aşkarlanır, amma



Səh. 8

# "Azərbaycan qayçını götürüb..." - Paşinyan

*"Əgər qayçı götürüb xəritəni kəssək, Azərbaycan Cermuk, Tavuş, Berkaber və digər ərazilərin bir hissəsini kəsəcək". "Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan brifinqdə deyib. "Çünki qayçını götürüb onu kəssək, Azərbaycan da qayçını götürüb Tavuşun Cermuk hissəsini, Berkaber hissəsini, digər hissələri və sair kəsəcək", - deyə o qeyd edib. Paşinyan bildirib ki, Ermənistan konstruktiv mövqedədir və heç bir qorxusu yoxdur: "Çünki vəziyyət əks olunur, Artsvaşen (Başkənd - red.) var, başqaları da var və Artsvaşen üçün həll yolu veriləcəyi kimi, digərləri də eyni şəkildə veriləcək.*

Səh. 2

## "Azərbaycan bütövlükdə regionda sülh və əməkdaşlıqda maraqlıdır"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, ABŞ-İran müharibəsinin neft qiymətlərini nə qədər artıra biləcəyindən, bu artımın Azərbaycan iqtisadiyyatına necə təsir göstərəcəyindən, minimum əməkhaqqı məbləğində...*

Səh. 4

## Monopolistlərin bahalaşma oyunu




*Bu ilin yanvar-aprel aylarında Azərbaycan 17,4 milyon ABŞ dolları dəyərində 4 min 412 ton iribuynuzlu heyvan əti (təzə və yaxud soyudulmuş, dondurulmuş) idxal edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin göstəricisindən dəyər ifadəsində 40 %, kəmiyyət olaraq 39 % çoxdur.*

Səh. 6

## Ceyhun Bayramovdan Zəngəzur dəhlizi ilə bağlı açıqlama



*Zəngəzur dəhlizinin Ermənistandan keçən avtomobil və dəmiryolu layihəsi ilə bağlı işlərin getdiyi Azərbaycan tərəfinə bildirib. "Unikal" xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir qeyd edib ki, bu layihə ABŞ tərəfindən dəstəklənir: "Bu istiqamətdə danışıqlar...*

Səh. 5

25_27 IYUI-QARA.qxd 7/9/2026 10:04 PM Page 2



# Pərvin ağır xəstəliyindən danışdı: "Müalicəsi bizda yoxdu"



***Aktrisa Pərvin Abıyeva keçirtdiyi ağır xəstəlikdən danışıb.***

Aktrisa axlorhidriya xəstəliyinə görə ağır günlər keçirtdiyini deyib. Pərvin bildirib ki, buna görə əməliyyat olunsa da, faydasını görməyib: "Bu əməliyyat Azərbaycanda aparılmır. Xəstəliyin diaqnozu yalnız bir xəstəxanada qoyulur. Mənə də yalnız 32 yaşımda düzgün diaqnoz qoyula bildi. O vaxta qədər heç bir xəstəxanada bunu müəyyən edə bilməmişdilər. Əməliyyat Azərbaycanda edilmir. Türkiyədə isə bu əməliyyatı cəmi bir həkim həyata keçirir. Çox çətin bir xəstəlikdir. Çalışın, bu xəstəliyə tutulmayın. Əsas səbəblərdən biri də stressdir.

Üç il əvvəl əməliyyat olundum, amma təəssüf ki, faydası olmadı. Müayinəsi də olduqca ağır prosesdir. Qalın zond burundan mədəyə endirilir və bu zaman pasiyent ayıq vəziyyətdə olur. Əməliyyatdan sonra isə uzun müddət xəstəxanada qalmalı, yalnız buz yeməli, əsəbiləşməməli və ciddi pəhriz saxlamalısınız".

# Lətifə arıqlama sirrini açıqladı: "Çörəksiz yaşamaq olmaz"

***Müğənni Lətifə son vaxtlar verdiyi çəki və həyat tərzində etdiyi dəyişikliklərdən danışıb.***

Axşam.az xəbər verir ki, sənətçi bu barədə "Həyatın dadı" verilişində açıqlama verib. O bildirib ki, arıqlamasına həm düzgün qidalanma, həm də idman kömək edib: "Həm pəhriz, həm də idmanla oldu. Düşündüm ki, dəyişiklik lazımdır. Dəyişiklik varsa, inkişaf var. Yoxdursa, eyni yerdə qalmış olursan. Arıqladıqca əhvalım, sağlamlığım, hər şeyim dəyişdi. Yeməkdən qalmıram, sadəcə miqdarını azaltdım. Şirniyyatı qida rasionumdan çıxardım".

Lətifə çörəyin tamamilə qida rasionundan çıxarılmasının tərəfdarı olmadığını da vurğulayıb: "Çörəksiz yaşamaq olmaz. Bu, dırnağa, dəriyə, saça təsir edir. Çörəyin özünəməxsus dadı və insan orqanizmi üçün vacib vitaminləri var. Demirəm ki, bütün günü çörək yeyin, amma səhər bir az yemək lazımdır. İnsan orqanizminə hər şey olar, əsas odur ki, miqdarında olsun".



Müğənni sosial şəbəkələrdə aktiv olmasının səbəbindən də söz açıb: "Baxıram ki, sosial şəbəkəsiz mümkün deyil. Hətta verilişlər də sosial şəbəkələrdə gündəmə gəlir. Düşündüm ki, burada aktiv olmaq önəmlidir. Bir az zamanla ayaqlaşmaq lazımdır".

# Rəqsanənin konsertində maraqlı evlilik təklifi



***Müğənni Rəqsanə İsmayılovanın iyunun 30-da Sumqayıtda keçirilən xalq konsertində duyğusal anlar yaşanıb.***

Milli.Az xəbər verir ki, konsert zamanı Sumqayıt sakini olan bir gənc səhnəyə çıxaraq sevdiyi qıza yüzlərlə tamaşaçının qarşısında evlilik təklifi edib. Gənc qızın "hə" cavabı alqışlarla qarşılanıb və meydanda xoş ovqat yaranıb.

Bu gözlənilməz hadisənin şahidi olan Rəqsanə İsmayılova cütlüyü təbrik edərək onlara xoşbəxtlik arzulayıb. Sənətçi, həmçinin onların toy mərasimi keçiriləcəyi təqdirdə mütləq qonaq kimi iştirak edəcəyinə söz verib.

Səhnədə yaşanan romantik anlar tədbir iştirakçılarının böyük marağına səbəb olub, görüntülər isə sosial şəbəkələrdə geniş yayılaraq müzakirələr yaradıb.

# Samirə Yurmalaya gedir



***Müğənni Samirə Efendi Latviyada keçiriləcək məşhur Layma Vaykula Festivalında səhnəyə çıxacaq.***

Axşam.az xəbər verir ki, bununla bağlı festivalın rəsmi sosial şəbəkə hesabında paylaşım edilib. Bildirilib ki, Efendi iyulun 24-də keçiriləcək konsert proqramında çıxış edəcək.

Paylaşımda sənətçi haqqında "Avroviziya"nın parlaq ulduzu, möhtəşəm xarizması və alovlu hitləri ilə tanınan Efendi güclü vokalı və Şərq motivləri ilə hər kəsi rəqs etdirəcək" sözləri yer alıb.

Qeyd edək ki, Layma Vaykula Festivalı hər il Latviyanın Yurmala şəhərində keçirilir və müxtəlif ölkələrdən tanınmış ifaçıları bir araya gətirir.

# Kərim 5 mindən çox maaş istəyir



***Müğənni Kərim Abasov yenidən aparıcı kimi efirə qayıtmağa hazırlaşır.***

Axşam.az xəbər verir ki, sənətçi bu barədə "Xəzər TV"yə açıqlamasında bildirib. O, telekanallardan biri ilə danışıqlar apardığını, lakin maaşla bağlı ortaq məxrəcə gələ bilmədiklərini qeyd edib: "Kanalların biri ilə danışıqlar gedir. Maaşıma görə hələ ki söz-söhbətlər var. Əgər həftəiçi 5 gün veriliş aparacağamsa, bu, digər işlərimə problem yaradacaq. Ən azından zamanımı ayırıram. Həftədə bir dəfə olsaydı, başa düşmək olardı. Amma layihə 5 gün olacaqsa, 5 min manatdan yuxarı əməkhaqqı istəyirəm".

Qeyd edək ki, Kərim Abasov bundan əvvəl "MTV Azərbaycan" kanalında yayımlanan "Meqa şou" proqramının aparıcısı olub.

# Mehin Hümbətovanın ölkədən çıxışına qadağa qoyuldu



***Müğənni Mehin Hümbətovanın ölkədən çıxışına qadağa qoyulub.***

"Unikal" xəbər verir ki, bu barədə sənətçi instaqram hesabında paylaşım edib. O bildirib ki, iki aydır ölkədən çıxışına "stop" qoyulub: "Bu yay, istirahət günlərində "stop"um var. Amma az qalıb, problem aradan qalxacaq. Mən də istirahətə yollanacam. Hələ ki bu məhdudiyyətin səbəbini açıqlamaq istəmirəm. Bilirəm ki, danışsam, prosesə təsir edəcək. Amma həll olduqda hər şeyi danışacağam".



# Vətəndaş qəbuluna böyük həssaslıqla yanaşılsın - Nazirdən tələb

***Azərbaycanın daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov vətəndaş qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.***

”Unikal” xəbər verir ki, nazir daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələrini layiqincə yerinə yetirdiyini bildirib.

V.Eyvazov beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin etibarlı təmin olunduğunu, qanunla müəyyən edilmiş funksiyaların digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıqla icra edildiyini vurğulayıb.

Nazir həmçinin qarşıda mühüm vəzifələrin dayandığını da diqqətə çatdıraraq onların ətraflı müzakirəsinin, eləcə də xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə əlavə təşkilati tədbirlərin müəyyənləşdirilib həyata keçirilməsinin vacibliyini qeyd edib.

V.Eyvazov eyni zamanda xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Nazir bununla yanaşı vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və vətəndaş qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Qeyd edək ki, iyulun 9-da Daxili İşlər Nazirliyində 2026-cı ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

# Özəl klinikalara yoxlama şoku

## Təkcə bir ayda 14 klinika cərimələndi - Ciddi nöqsanlar aşkarlanır, amma...

***Bu ilin 6 ayında Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən ümumilikdə 182 özəl tibb müəssisəsi və fiziki şəxs barədə yoxlama aparılıb. Bu barədə AEM-dən bildirilib.***

Qeyd olunub ki, stomatologiya sahəsi üzrə 56 müəssisə və fiziki şəxsə dair inzibati tənbeh tədbiri görülərək aidiyyəti üzrə protokollar tərtib edilib.

Eyni zamanda ötən ay 14 klinika müəyyən edilmiş pozuntulara görə cərimələnib.

Plastik cərrahiyyə sahəsində 2 protokol tərtib olunub (Apa).

Qeyd edək ki, ilin əvvəlindən ölkədə çox sayda özəl klinikada yoxlamalar aparılıb, ciddi nöqsanlar aşkarlansa da, sözügedən tibb müəssisələri ilə bağlı problemlər səngimək bilmir. Cari ilin təkcə yanvar ayında ümumilikdə 21 özəl tibb müəssisəsində yoxlama keçirilib, onlardan 11-i planlı, 10-u isə plandankənar yoxlama olub və nəticədə 18 nöqsan faktı aşkarlanıb. Oxşar yoxlamalar və nöqsanların aşkarlanması sonrakı



aylarda da davam etdirilib. Və ümumi mənzərə bizə onu göstərir ki, özəl klinikaların fəaliyyəti ilə bağlı çoxsaylı problemlər qalmaqda davam edir.

Belə ki, bu ilin may ayında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən ümumilikdə 32 klinikada yoxlama aparılıb, bunlardan 14-ü planlı, 18-i isə plandankənar yoxlama olub. Məlumata görə, planlı yoxlamalar zamanı 13, plandankənar yoxlamalar zamanı isə 20 inzibati xəta haqqında protokol tərtib edilib.

Digər tərəfdən özəl klinikalarla bağlı qalmaqallı xəbərlər də səngimir. Məsələn, bu günlərdə məlum olub ki, Sumqayıt şəhərində yerləşən “Liman Klinikası” qüsurlu əməliyyata görə pasiyentə təzminat ödəyəcək. “Qafqazinfo”nun əldə etdiyi xəbərə görə, məhkəmə belə qərar qəbul edib.

İş üzrə iddiaçı Nuridə Zülfüqarovadır. Zülfüqarova 2024-cü ildə “Liman Klinikası”nda cərrah Əfqan Ağagülov tərəfindən burun əməliyyatı olunub. Lakin əməliyyatdan sonra onun sol gözündə çəplik yaranıb.

Sonradan rayon prokurorluğunda araşdırma aparılsa da, yekunda cinayət işinin başlanmasından imtina edilib. Lakin məhkəmə-tibbi ekspertizası əməliyyatın qüsurlu aparıldığını təsdiqləyib.

Və ya ötən ay AEM tərəfindən Gəncə şəhəri, Şah İsmayıl Xətai prospekti, 97c ünvanında yerləşən ”Doktor Aygün” Tibb Mərkəzində aparılan planlı yoxlama zamanı lisenziyadan kənar (mikrobiloji, infeksion) işlər üzrə fəaliyyətin olması faktı aşkarlanıb. Nəticədə klinika rəhbəri barəsində əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan (Sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması) inzibati xəta protokolu tərtib olunub. Protokol İnzibati Xətalar Məcəlləsinin 215.1-ci maddəsi ilə irəli sürülüb və işə məhkəmədə baxılıb.

Məhkəmədə MMC-nin nümayəndəsi Hümbət İsgəndərov Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən planlı (növbəti) yoxlamanın keçirilməsinin qanunsuz olduğunu deyib. Onun sözlərinə görə, mərkəz tərəfindən müvafiq qanunun tələbinə əsasən planlı yoxlama aparılmazdan öncə azı 5 gün qabaq bildiriş göndərilməli olduğu halda, buna əməl edilməyib: ”Əgər vaxtında bildiriş göndərilsəydi, Mərkəz tərəfindən nəzərdə tutulan iradlar aradan qaldırılmış olardı. Bizim Tibb Mərkəzi lisenziyadan kənar fəaliyyətlə məşğul olmur. Qeyd edilənlərin nəzərə alınmasını və ədalətli qərar qəbul edilməsini xahiş edirik”.

Məhkəmənin hökmü ilə ”Doktor Aygün” Tibb Mərkəzi MMC İnzibati Xətalar Məcəlləsinin 215.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətməkdə təqsirli bilinib və 6000 manat cərimə olunub.

Qeyd edək ki, nizamnamə kapitalı 20 manat olan ”Doktor Aygün” Tibb Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyətinin qanuni təmsilçisi Ələsgərov Şahin Şıxı oğludur.

Bu arada Azərbaycanda tanınmış bir klinikanın öz fəaliyyətini dayandırması da diqqətdən qaçmayıb. ”Mayomed” klinikası ötən ay bağlanıb. Manset.az-ın əldə etdiyi məlumata görə, klinikanın Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi 205 ünvanında yerləşən binasından bütün tibbi avadanlıqlar çıxarılıb, həkim heyəti və digər əməkdaşlarla sağollaşılıb. Artıq klinikanın reklam lövhələri də binanın üzərindən götürülüb. Klinikanın hansı səbəbdən fəaliyyətini dayandırdığı isə məlum deyil.

Qeyd edək ki, “Mayomed” klinikası daha çox fizioterapiya və reabilitasiya xidmətləri ilə tanınıb.

Bu arada özəl tibb müəssisələrində aparılan yoxlamalar nəticəsində son vaxtlar bir sıra klinikaların fəaliyyətinin dayandırıldığını, bəzilərinin də lisenziyalarının məhdudlaşdırıldığını xatırlatmaq yerinə düşər. Belə ki, həmin yoxlamalar zamanı əsasən lisenziyasız və ya lisenziyadan kənar tibbi fəaliyyət, qeydiyyatsız dərman vasitələrindən istifadə və digər qanun pozuntuları aşkarlanıb. “Azxeber.com”un araşdırmasından məlum olub ki, müxtəlif illərdə aparılan yoxlamaların nəticəsi olaraq ”VİP Dental” MMC, ”Loğman Klinikası” MMC, ”İnvitro” MMC, ”Starmed” MMC və ”Nihat Klinikası” MMC-nin fəaliyyəti dayandırılıb. Bununla yanaşı, ”Zaman Tibb Mərkəzi” MMC, ”Assmed” MMC Özəl Tibb Mərkəzinin lisenziyalarından stasionar xidmət hüququ çıxarılaraq həmin müəssisələrə yalnız poliklinik xidməti göstərməyə icazə verilib. Həmçinin, ”NNS Klinika” MMC-də keçirilən plandankənar yoxlama zamanı isə lisenziya olmadan tibbi fəaliyyət göstərilməsi və qeydiyyatsız dərman vasitələrindən istifadə faktları aşkarlanıb. Bununla bağlı inzibati protokol tərtib edilib, eyni zamanda müəssisənin fəaliyyətinin dayandırılması məqsədilə hüquq-mühafizə orqanlarına təqdimat göndərilib.

Lisenziya şərtlərinin pozulmasına görə fəaliyyəti dayandırılmış ”Laser Beauty Klinika”da aparılan təkrar yoxlama zamanı isə müəssisədə tibbi prosedurların davam etdirildiyi müəyyən edilib. Bu səbəbdən klinika barəsində yenidən inzibati xəta haqqında protokol tərtib olunaraq aidiyyəti üzrə göndərilib.

Beləliklə, Azərbaycanda özəl klinikalarla bağlı problemlər aktuallığını qoruyur. Onların bir çoxunun cərimələnməsinə, fəaliyyətlərinin dayandırılmasına, yaxud lisenziyalarının məhdudlaşdırılmasına baxmayaraq həmin problemlərin kökündən həlli təəssüf ki, hələlik mümkünsüz görünür...

***Sənan Mirzə***

# ABŞ-İran müharibəsi yenidən başlayır? - Regionda gərginlik yüksələn xətt üzrə artır

***6 iyul tarixində ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) Amerika qüvvələrinin İrandakı 80-dən çox hədəfi dəqiq sursatla vurduğunu açıqlayıb.***

Hücum İranın Qətər və Səudiyyə Ərəbistanının ticarət gəmilərinə hücumlarına cavab olaraq həyata keçirilib və əvvəlki ABŞ hücumundan daha şiddətli olub.

ABŞ-nin İrana hücumlarının hava hücumundan müdafiə sistemlərini, komandanlıq və idarəetmə şəbəkələrini, sahil radarlarını, gəmi əleyhinə raket imkanlarını və boğazda və yaxınlığında 60-dan çox kiçik İnqilab Keşikçiləri qayığını hədəf aldığı iddia edilir.

İran silahlı qüvvələrinin ABŞ-nin hücumlarına sarsıdıcı cavab verəcəyini və onun Hörmüz boğazının idarə olunmasına müdaxiləsinə icazə verməyəcəyini açıqlayıb.

Toqquşma Hörmüz boğazında Qətər neft tankerinin vurulmasından sonra baş verib.

Gərginliyin bu şəkildə artmasından sonra Donald Tramp 8 iyul 2026-cı ildə Ankarada NATO zirvə görüşündə ABŞ-İran razılaşmasının başa çatdığını və artıq İranla danışıqlar aparmaq istəmədiyini elan etdi.

Təxminən üç həftə əvvəl İslamabadda imzalanan anlaşma memorandumu müharibəni dayandırmaq və sülh danışıqlarına başlamaq üçün 60 günlük müvəqqəti razılaşma idi.

İran və ABŞ arasında gərginliyin artmasının səbəblərindən biri İran-ABŞ Anlaşma Memorandumunun 5-ci maddəsinin fərqli şəkildə şərh edilməsidir.

Bu Anlaşma Memorandumuna görə, İran İslam Respublikası bütün səylərini səfərbər edərək, kommersiya gəmilərinin Fars körfəzindən Oman dənizinə və əksi istiqamətində 60 gün müddətində pulsuz şəkildə təhlükəsiz keçidi üçün tədbirlər görməli idi. Ticarət gəmilərinin keçidi dərhal başlamalı və İran İslam Respublikası tərəfindən texniki və hərbi maneələrin aradan qaldırılması, eləcə də minaların təmizlənməsi zərurətindən asılı olaraq 30 gün ərzində qurulmalı idi. İran İslam Respublikası tətbiq olunan beynəlxalq hüquqa və Hörmüz boğazının sahil dövlətlərinin suveren hüquqlarına uyğun olaraq, digər Fars körfəzi sahil dövlətləri ilə dialoq çərçivəsində Hörmüz boğazında gələcək idarəetmə və dəniz xidmətlərini müəyyən etmək üçün Oman Sultanlığı ilə dialoq aparacaqdı.

Lakin İran bütün nəqliyyatın onunla əlaqələndirilməli olduğuna inanır, ABŞ isə bunu boğazın tamamilə açıq olduğu mənasında anlayır.

Tehranın fikri budur ki, Hörmüz boğazı açıq qalmalı olsa da, iki tərəf daimi dəniz mexanizmi barədə danışıqlar aparana qədər müvəqqəti 60 günlük müddət ərzində bütün ticarət İranla əlaqələndirilməlidir. Vaşinqton isə əksinə olaraq ”açıq boğaz” ifadəsini gəmilərin İranla əlaqələndirilmədən İran və ya Oman gəmiçilik zolaqlarından keçə biləcəyini deyir.

Tehranın nöqteyi-nəzərindən mübahisə sadəcə texniki deyil, strateji bir mübahisədir. İran rəsmiləri ABŞ-nin bu razılaşmadan İranın Hörmüz boğazına nəzarətini sarsıtmaq üçün istifadə edəcəyindən narahatdırlar.



Bir çox İran strateqinin fikrincə, belə bir tənzimləmə İranın gələcək potensial münaqişələrdə ən vacib təsirini - Hörmüz boğazından dəniz nəqliyyatını pozmaq üçün etibarlı qabiliyyətini aradan qaldıracaq. Tehranın nöqteyi-nəzərindən, bu təsir gücünü itirmədən kommersiya gəmiçiliyinin bərpası mümkündür. Lakin bu, yalnız bütün dəniz hərəkətlərinin İranla əlaqələndirilməsinə davam etməsi və beləliklə, İranın su yolu üzərində nominal səlahiyyətini qoruması şərtilə mümkündür.

Digər tərəfdən, Vaşinqton iddia edir ki, memorandumun mətnində gəmilərin boğazdan keçməzdən əvvəl İrandan icazə alması tələb olunmur. ABŞ-yə görə, memorandum İrana yalnız kommersiya gəmilərinin təhlükəsizliyini təmin etmək məsuliyyətini qoyur və Vaşinqton bu fərqi Tehrana bütün dəniz nəqliyyatı üzərində əməliyyat nəzarəti vermək kimi görmür.

Trampın anlaşma memorandumunun başa çatdığını elan etməsi fonunda gərginliyin artması yeni bir münaqişə mərhələsinin başlaması ilə bağlı fərziyyələrə səbəb olub.

Bu baxımdan qeyd etmək lazımdır ki, İran və ABŞ arasında bu yaxınlarda əldə edilən razılaşma əvvəlcə davamlı sülh razılaşması deyil, ”taktiki fasilə” kimi təsvir edilmişdi. Onun əsas məqsədi onilliklər boyu davam edən fikir ayrılıqlarının köklərini həll etmədən böhranı dərhal aradan qaldırmaq və gələcək danışıqlar üçün imkan yaratmaq idi.

2015-ci il Birgə Fəaliyyət Planı (BHFP) illərlə davam edən danışıqların nəticəsi idi, anlaşma memorandumu isə yalnız 60 günlük müddət üçün planlaşdırılırdı. Ekspertlər bu müddət ərzində hərtərəfli razılaşmanı qeyri-real hesab edirdilər.

Son gərginlikdən əvvəl analitiklər anlaşma memorandumunun ciddi çətinliklərlə üzləşə biləcəyi və xüsusən də Hörmüz boğazının idarə olunması ilə bağlı fikir ayrılıqlarının onu tez bir zamanda poza biləcəyi barədə xəbərdarlıq etmişdilər.

Trampın müqavilənin sona çatması və hərbi zərbələr barədə son açıqlamaları bu proqnozları doğrultdu. Saziş hazırda faktiki olaraq dayandırılma və ya çökmə vəziyyətindədir.

Lakin hər iki tərəfdə tammiqyaslı müharibəyə başlamaq istəksizliyi var. Buna görə də, son hücumlar daha çox məhdud hərbi siqnal kimi qəbul edilir. Onların məqsədi tammiqyaslı müharibəyə başlamaq deyil, Hörmüz boğazında təzyiq göstərmək və çəkindirmə tənliyini yenidən müəyyənləşdirməkdir.

Hərbi zərbədən əlavə, Tramp İran neftinə sanksiyaları bərpa etmək barədə də addım atıb. Bu, Vaşinqtonun təzyiq göstərmək, bəlkə də Tehranı geri çəkilməyə və ya şərtlərini qəbul etməyə məcbur etmək üçün hərbi və iqtisadi vasitələrin kombinasiyasından istifadə etdiyini göstərir.

Lakin İrandakı rejim ABŞ və İsraillə son müharibəni öz qələbəsi kimi hesab edir, buna görə də şərtlərini diktə etməyə çalışır. ABŞ lideri isə İranın xəstə insanlar tərəfindən idarə olunduğunu bildirərək, daha onlarla işləmək istəmədiyini, yarımçıq qalan işini tamamlamaq istədiyini bildirib.

Əvvəlki toqquşmalardan sonra iki tərəf ticarət gəmilərinin eyni vaxtda İrana və Körfəz Əməkdaşlıq Şurasına (KƏŞ) üzv ölkələrdən birinə keçidləri barədə məlumat verməsi üçün bir həll yolu araşdırırdı.

Bu tənzimləmədə gəmilər Tehrana məlumat verərkən, eyni zamanda Körfəz Əməkdaşlıq Şurası ilə əlaqəli dənizçilik orqanına da hesabat verəcəkdilər. Bu həll yolu İranın nəzarət istəyi ilə Amerikanın Tehrana eksklüziv nəzarətin verilməsinin qarşısını almaq istəyini tarazlaşdıra bilərdi. Lakin bu danışıqlar İranın öldürülən Ali Lideri Əli Xameneinin dəfn mərasiminin keçirilməsi səbəbindən dayandırıldı.

Fasilə zamanı Avtomatik İdentifikasiya Sistemləri (AIS) söndürülmüş bir neçə kommersiya gəmisi Tehrana xəbər vermədən cənub gəmiçilik zolağından keçməyə cəhd etdi. İran bunu memorandumun qəbul olunmasına birbaşa təhdid kimi gördü və güc tətbiq edərək cavab verdi.

İki tərəf indi açıq şəkildə bir-birinin qırmızı xətlərini sınaqdan keçirir.

Danışıqlar dayandırılmamışdan əvvəl təklif olunan orta mövqe hələ də ağlabatan görünür. Bu sənədə əsasən, gəmilər keçidlərini həm İrana, həm də Körfəz Əməkdaşlıq Şurası tərəfindən təyin edilmiş dənizçilik orqanına bildirməlidirlər. Belə bir tənzimləmə, son nəticəni əvvəlcədən qiymətləndirmədən suverenlik mübahisəsini təxirə salacaq, eyni zamanda kommersiya gəmiçiliyinin davam etməsinə və daimi razılaşma üzrə danışıqların davam etməsinə imkan verəcək.

İndi əsas sual odur ki, son 12 saatlıq atışmadan sonra ikili informasiya mexanizmi yenidən canlandırılacaq, yoxsa bu yeni eskalasiya mərhələsi diplomatiya üçün pəncərəni tamamilə bağlayıbmı? Bu sualın cavabı, ehtimal ki, yaxın günlərdə aydınlaşacaq.

***Ağarza Elçinoğlu***



## "Başkənd Azərbaycan xəritələrində anklav kimi qeyd olunub" - Paşinyan

***”Anklavlar və eksklavlar mövzusundan imtina etdiyimizi və ya imtina edə biləcəyimizi deyə bilmərəm. Bu məsələnin həllini tapmalıyıq, həll yollarının nə olacağı müzakirə mövzusudur”.***

”Unikal” xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan brifinqdə deyib.

”Biz bu məsələni elə bir səviyyəyə qaldırmışıq ki, bu mövzuya əlavə əsəblər, o cümlədən xarici istifadə tətbiq olunmur. Məsələ mövcuddur, məsələ 1991-ci il Alma-Ata Bəyannaməsinə və demarkasiya üçün əsas olan xəritələrə uyğun olaraq həll edilməlidir”, - deyə o qeyd edib.

Paşinyan əlavə edib ki, Ermənistanın bu məsələdə marağı olduğunu xatırlatmaq istəyir: ”Çünki Artsvaşen (Başkənd - red.) kəndi 1991-ci il Alma-Ata Bəyannaməsində təsbit olunmuş prinsiplərə uyğun olaraq, eksklav statusu ilə Azərbaycanın nəzarəti altındadır və Ermənistanın suveren ərazisidir.

Bu problemin həlli üçün iki variant var: İstər anklav, istərsə də eksklav olsun, ərazi de-yure aid olduğu ölkənin ərazisi olaraq qalmağa davam edir. Yaxud da biz, məsələn, sərhəd boyunca ekvivalent əraziləri bölüşdürməyə və ya müəyyən yerlərdə dəyişikliklər etməyə razıyıq. Bu mövzu Ermənistan Respublikasının qanunvericiliyi və Konstitusiyası ilə müəyyən edilmiş prosedura uyğun olaraq həll edilməlidir.

Başkənd Azərbaycanın valyutası və pasportunun xəritələrində anklav kimi qeyd olunub. Bu, çox vacib bir nüansdır və düşünürəm ki, müvafiq xəritələrə Alma-Ata Bəyannaməsinə uyğun olaraq dəqiq yanaşmaq üçün eyni yanaşmanı təkrarlamalıyıq”.

***Ağarza Elçinoğlu***

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:04 PM Page 5



# Prezident bu sazişi təsdiqlədi



***"Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana görə, Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməli, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərməlidir.

Qeyd edək ki, saziş 2026-cı il mayın 18-də Bakıda imzalanıb.

# Nazir Səlcuq Bayraktarla hərbi-texniki əməkdaşlığı müzakirə etdi

***Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev ölkədə işgüzar səfərdə olan Türkiyənin "Baykar" şirkətinin İdarə Heyətinin sədri Səlcuq Bayraktar və Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgünlə görüşüb.***




Bu barədə "Unikal"a nazirlikdən məlumat verilib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən müdafiə sənayesi sahəsində uğurla inkişaf etdiyi vurğulanıb.

Bildirilib ki, "Baykar" şirkəti ilə əməkdaşlığın daha da genişləndirilməsi Azərbaycanın müdafiə sənayesinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, həyata keçirilən birgə layihələr iki ölkə arasında mövcud tərəfdaşlığın möhkəmlənməsinə mühüm töhfə verir.

Tərəflər görüş zamanı hərbi-texniki əməkdaşlığın genişləndirilməsi, innovativ texnologiyaların tətbiqi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan və İtaliya müdafiə sahəsində əməkdaşlığı müzakirə etdi

***İyulun 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan İtaliyanın Müdafiə Nazirliyinin milli silahlanma direktoru admiral Giacinto Ottavianinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, görüşdə general-polkovnik Z.Həsənov ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan müdafiə sahəsində əməkdaşlığı yüksək qiymətləndirib. Azərbaycan-İtaliya əlaqələrinin bir çox sahələrdə olduğu kimi hərbi sahədə də xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən admiral G.Ottaviani qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin müstəsna əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Qonaq Azərbaycan və İtaliya arasında hərbi əməkdaşlığın hər iki dövlətin müdafiə qüdrətinin yüksəldilməsinə töhfə verəcəyindən əminliyini ifadə edib.

İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Luka Di Canfrançeskonun da iştirak etdiyi görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığa dair qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Azərbaycanda qaz istehlakçıları üçün yeni qaydalar təsdiqləndi

***Nazirlər Kabineti "Qazdan istifadə Qaydaları"nı təsdiq edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni əmr imzalayıb.

Təsdiq olunmuş qərara uyğun olaraq, istehlakçının tikinti obyektinin qaz təchizatı məqsədilə qaz satıcısı ilə qazın alqı-satqı müqaviləsinin rəsmiləşdirilməsi "ASAN Kommunal" mərkəzlərinin hələ fəaliyyətə başlamadığı regionlarda bu mərkəzlər yaradılanadək



"ASAN xidmət" mərkəzləri vasitəsilə təmin olunacaq.

Bundan əlavə, qaydalarda Elektron Hökumət İnformasiya Sisteminin xidmət kanalı üzərindən müvafiq sistem operatorunun informasiya sistemi vasitəsilə icra edilməsi nəzərdə tutulan prosedurların təşkilatı hazırlığı tamamlananadək həmin prosedurlar birbaşa qaydada, poçt və ya elektron poçt yolu ilə yerinə yetiriləcək.

Həmçinin Nazirlər Kabinetinin 12 may 2011-ci il tarixli "Qazdan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" əvvəlki qərarı qüvvədən düşmüş hesab edilib.

# MM-də uşaqların sosial şəbəkələrdən qorunması ilə bağlı ictimai dinləmə keçirilib

***Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasında "Rəqəmsal inkişaf, süni intellekt və uşaqların sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən qorunması" mövzusunda ictimai dinləmə keçirilib.***

"Unikal" xəbər verir ki, çıxışlarda 2028-ci ilin sonunadək Azərbaycan dilində böyük dil modellərinin hazırlanmasının, süni intellekt sahəsində idarəetmənin təkmilləşdirilməsinin, məlumatların səmərəli idarə olunmasının və rəqəmsal transformasiyanın sürətləndirilməsinin strateji əhəmiyyəti qeyd olunub.Bildirilib ki, bu məqsədlərə nail olmaq üçün güclü hüquqi baza, siyasi iradə və ardıcıl qanunvericilik islahatları vacib şərtlərdir.



Eyni zamanda çıxışlarda uşaqların rəqəmsal təhlükəsizliyinin qorunmasının dövlət, məktəb, müəllim, valideyn və rəqəmsal platformaların birgə məsuliyyəti olduğu vurğulanıb. Şagirdlərin rəqəmsal savadlılığının artırılması, şəxsi məlumatların qorunması, məlumatların doğruluğunun yoxlanılması və sosial şəbəkələrdə etik davranış vərdişlərinin formalaşdırılması əsas prioritetlərdən biri kimi göstərilib. Qeyd edilib ki, texnoloji inkişaf yalnız etik prinsiplərə əsaslandığı və insan rifahına xidmət etdiyi halda gələcək nəsillər üçün daha təhlükəsiz, innovativ və dayanıqlı rəqəmsal mühit formalaşdıracaq.

Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qiymətləndirildiyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, Azərbaycan bu sahədə beynəlxalq konvensiyalara qoşulub, milli qanunvericilik təkmilləşdirilib və Prezident İlham Əliyevin müvafiq sərəncamı əsasında uşaqların rəqəmsal mühitdə qorunmasına yönəlmiş hüquqi və texnoloji mexanizmlər gücləndirilir. Eyni zamanda, Rəqəmsal İnkişaf Şurasında bu istiqamətdə görüləcək tədbirlərin müzakirə olunduğu vurğulanıb.

# "Azərbaycan qayçını götürüb..." - Paşinyan

***"Əgər qayçı götürüb xəritəni kəssək, Azərbaycan Cermuk, Tavuş, Berkaber və digər ərazilərin bir hissəsini kəsəcək".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan brifinqdə deyib.

"Çünki qayçını götürüb onu kəssək, Azərbaycan da qayçını götürüb Tavuşun Cermuk hissəsini, Berkaber hissəsini, digər hissələri və sair kəsəcək", - deyə o qeyd edib.

Paşinyan bildirib ki, Ermənistan konstruktiv mövqedədir və heç bir qorxusu yoxdur: "Çünki vəziyyət əks olunur, Artsvaşen (Başkənd - red.) var, başqaları da var və Artsvaşen üçün həll yolu veriləcəyi kimi, digərləri də eyni şəkildə veriləcək.

Çəmbərəkdə apardığımız təmaslar zamanı insanlar, o cümlədən Artsvaşen sakinləri iki fikir bildirdilər. Bəziləri kəndin bərpa olunacağı və yaşaya biləcəyimiz bir nöqtəyə çatmalı olduğumuzu söylədi, eyni zamanda illər keçib, gəlin ərazinin tarazlığı pozulmasın və yenidən köçməyə ehtiyac qalmasın deyənlər də oldu".

Paşinyan əlavə edib ki, hər iki baxış nöqtəsi var, lakin bu, əlavə müzakirə və razılaşma məsələsidir. O, hazırda heç bir razılaşma, qərar və ya işarə olmadığını bildirib: "Qeydlər



göstərir ki, həmin ərazilər demarkasiyanın əsasını təşkil edən xəritələrdə ifadə olunur və qayçını götürüb xəritələrin həmin hissələrini kəsmək ölümcül bir səhv olardı. Bu, qayçını götürüb xəritənin kəsilməsi aktını qanuniləşdirmək demək olardı. Biz bunu etməyəcəyik".

***Ağarza Elçinoğlu***

# MİQ imtahanlarının vaxtı açıqlandı

***2026-2027-ci tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanları ilə bağlı tarixlər elan edilib.***

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən "Unikal"a verilən məlumata görə, sabah gün ərzində namizədlər şəxsi səhifələrinə daxil olaraq imtahanın keçiriləcəyi tarix, saat və məkan barədə məlumatla tanış ola bilərlər.

Qeyd edək ki, müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanları 14-18 iyul tarixlərində ölkənin 19 şəhərində yerləşən 38 imtahan mərkəzində təşkil olunacaq.

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:04 PM Page 6



# "Delimitasiya prosesində eksklav kəndlər məsələsi həllini tapacaq" - Nazir

***Delimitasiya prosesi və demarkasiya istiqamətində iş davam edir. Bunun üçün hər iki ölkə tərəfindən xüsusi komissiyalar yaradılıb. Komissiyalara Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri rəhbərlik edir. Müxtəlif dövlət qurumlarının nümayəndələrindən ibarət bu komissiyaların fəaliyyəti mütəmadi şəkildə davam etdirilir.***



"Unikal" xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında xarici işlər naziri Ceyhun Bayramov söyləyib.

O bildirib ki, aparılan işlərin ilkin müsbət nəticələrinin də şahidi olmuşuq. Ötən illərdə təxminən 13 kilometrlik dövlət sərhəd xətti delimitasiya edilib. Daha sonra qısa müddət ərzində həmin ərazidə demarkasiya işləri də həyata keçirilib.

Bundan əlavə, komissiyaların fəaliyyətini tənzimləyən və gələcək işini müəyyən edən bir sıra normativ aktlar həm Azərbaycan, həm də Ermənistan tərəfindən razılaşdırılmış şəkildə qəbul olunub və hər iki ölkədə təsdiqlənib.

"Eyni zamanda, razılaşdırılıb ki, delimitasiya prosesi şimaldan cənuba - Azərbaycan-Ermənistan sərhədinin Gürcüstanla birləşmə nöqtəsindən başlayaraq İran sərhədinədək davam etdirilsin. Təbii ki, bu proses çərçivəsində eksklav kəndlərlə bağlı məsələlər də öz həllini tapacaq", - deyə C. Bayramov əlavə edib.

# "Həssas məlumatlar ölkə sərhədlərini tərk etmədən emal oluna bilir" - Komissiya sədri

***"Bildiyiniz kimi, ölkədə artıq milli Superkompüter Mərkəzi qurulub. Bu bizə imkan verir ki, mürəkkəb süni intellekt modelləri xarici xidmətlərdən asılı olmadan ölkə daxilində təhlükəsiz şəkildə idarə edilsin".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının "Rəqəmsal inkişaf, süni intellekt və uşaqların sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən qorunması" mövzusunda bu gün təşkil etdiyi ictimai müzakirədə Komissiyanın sədri Ramid Namazov deyib.

O bildirib ki, bu, milli təhlükəsizlik və rəqəmsal suverenlik baxımdan strateji addımdır. Dövlətə məxsus həssas məlumatlar artıq ölkə sərhədlərini tərk etmədən emal oluna bilir: "Bundan başqa, 2026-2028-ci il fəaliyyət planında nəzərdə tutulan qadağan edilmiş məzmunun süni intellekt vasitəsilə avtomatik aşkarlanması yeni nəsil təhdidlərə cavab vermək üçün nəzərdə tutulub. Növbəti addım kimi isə 2028-ci ilin sonuna qədər Azərbaycan dili üzrə böyük dil modellərinin yaradılmasıdır. Bunun əhəmiyyəti belədir ki, dünyada böyük dil modellərinin əksəriyyəti ingilis və başqa dominant dil üzərinə yönəldilib. Bu da Azərbaycan dilində keyfiyyətli süni intellekt xidmətlərinin



məhdudluğu deməkdir. Öz dilimizdə güclü modellər yaratmaq mədəni və linqivistik suverenliyimizi daha da artıracaq".

***Anar Kəlbiyev***

# "Valideyn diqqət yönəltmir ki, uşaq telefonda nə ilə məşğuldur" - Komitə sədri

***"Bilmirəm siz fikir verirsiniz, ya yox. Biz son zamanlar teztez müşahidə edirik. Ailə oturur, uşaqlar əllərinə alır telefonu, onunla məşğul olur. Nə bir-birlərinə kitab tövsiyyə edir, nə söhbətlər edirlər".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, deputat Hicran Hüseynova parlamentin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının "Rəqəmsal inkişaf, süni intellekt və



uşaqların sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən qorunması" mövzusunda təşkil etdiyi ictimai müzakirədə deyib.

Komitə sədri bildirib ki, orta və yaşlı nəsil elektron imkanlardan o qədər də istifadə edə bilmir: "Onlar üçün də rahatdır ki, uşaqlar ora-bura qaçmır. Valideyn amma ciddi diqqət yönəltmir ki, o uşaq telefonda nə ilə məşğuldur. Bizdə idmana nə qədər imkanlar yaranır. Hər bir ailədə uşaqlar idmanla, yaradıcılıqla məşğuldurmu? Bir çox istiqamətlər var ki, ailə mühitində məcburi formada diqqət yönəldilməlidir".

# Dövlət xətti ilə 4 milyard manat ipoteka krediti verilib

***2006-cı ildən bəri İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən 3,98 milyard manat ipoteka krediti verilib ki, bu da 59 mindən çox ailənin mənzil şəraitini yaxşılaşdırıb.***

"Unikal" bu barədə Fonda istinadən xəbər verir. Məlumata görə, təkcə bu ilin I yarısında Azərbaycanda dövlət xətti ilə 226,3 milyon manat məbləğində 2 242 ipoteka krediti, o cümlədən 156,1 milyon manat məbləğində 1 418 adi ipoteka krediti və 70,2 milyon manat məbləğində 824 güzəştli ipoteka krediti verilib.

Şəxsi yığımları yetərli olmayan əhalinin daha aşağı ilkin ödənişlə ipoteka kreditlərindən faydalanmasını təmin etmək məqsədilə isə 1 iyul 2026-cı il tarixinə 1571 ipoteka krediti üzrə 149,9 milyon manat məbləğində zəmanət verilib.

Fondun vəsaiti hesabına verilən ipoteka kreditlərindən faydalananların 67 %-ini gənclər və gənc ailələr təşkil edib, kreditlərin 22 %-ə yaxını isə regionların payına düşüb.

# Rusiya vətəndaşlığı əlindən alınan diaspor rəhbəri vəkil imiş

***Samara vilayətindəki Azərbaycan diasporunun rəhbəri Şirvan Kərimov Rusiya vətəndaşlığından məhrum edilib.***

"Unikal"ın məlumatına görə, o, Samara Vəkillər Kollegiyasının vəkili, hüquq məsləhətçisidir.

"Samara Vilayəti Azərbaycanlıları Liqası" ictimai təşkilatının rəhbəri Ş.Kərimov hazırda Azərbaycandadır. Qərarın səbəbləri hazırda məlum deyil.

Eyni zamanda Samara Vilayət İctimai Palatasının sədr müavini Yekaterina Kolotovkina bildirib ki, Şirvan Kərimov Samara Vilayət İctimai Palatasının üzvü olaraq qalır.

Onun sözlərinə görə, Şirvan Kərimov sonuncu dəfə plenar iclasda görünüb: "Onun vətəndaşlığının ləğvi ilə bağlı hələlik rəsmi məlumat yoxdur. Biz bunu xəbərlərdən öyrəndik. Hazırda Şirvan Kərimovla bağlı heç bir qərar qəbul edilməyib".

***Ağarza Elçinoğlu***

# "Arzulayıram ki, uşaqlar o qanunun qəbulu zamanı bizi izləməsinlər" - Zahid Oruc

***"Uşaqların sosial mediadan qorunmasına dair parlament qanununu ən mütərəqqi hadisə kimi qiymətləndiririk. 94% valideyn eyni mövqeyi bölüşürdü".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının "Rəqəmsal inkişaf, süni intellekt və uşaqların sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən qorunması" mövzusunda təşkil etdiyi ictimai müzakirədə deyib.

Komitə sədri bildirib ki, bu, xalqdan gələn çağırış idi, əslində xalqın qəbul etdiyi qanun idi: "Arzulayıram ki, uşaqlar o qanunun qəbulu zamanı bizi izləməsinlər. Çünki birdən belə ictimai dinləmələrə baxsalar, görəcəklər ki, salonda 52 nəfər var, mən saydım və onun 80%-nin gözləri telefonda idi. Böyüklərinin özünü də rəqəmsal sistemlərdən qorumaya dair qanunlara ciddi ehtiyacımız var", - deyə komitə sədri qeyd edib.

***Anar Kəlbiyev***

# 6 ayda 104 kriminal qrup zərərsizləşdirilib - Polis hesabat verdi

***Daxili işlər orqanlarının mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 288, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 104 kriminal qrup zərərsizləşdirilib.***

"Unikal" xəbər verir ki, bu barədə 2026-cı ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclasında elan edilmiş hesabatda bildirilib.

Yanvar-iyun ayları ərzində qanunsuz odlu silah saxlayan və daşıyan 70 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Eyni zamanda 3.088 odlu silah, 337 qumbara və 99 mindən çox patron aşkarlanıb.

Cinayətlərin açılması göstəricində də müsbət dinamika müşahidə edilib. 1,1 faiz, qeyri-aşkar şəraitdə törədilənlərin 2,5 faiz, mülkiyyət əleyhinə olanların 4,4 faiz, onlardan oğurluqların 10,7 faizi, dələduzluqların 1,2 faizi yaxşılaşıb, adam oğurluğu və avtonəqliyyat vasitəsinin qaçırılması cinayətlərinin açılması tam təmin edilib.

2025-ci ilin 6 ayı ilə müqayisədə bu il eyni müddətdə ümumi cinayətlər 8,6, ağır və xüsusilə ağır cinayətlər 6,5, mülkiyyət əleyhinə olanlar 15,3, onlardan oğurluqlar 11,5, dələduzluqlar 16,8, soyğunçuluqlar 8,8, quldurluqlar 44,2, hədə-qorxu ilə tələb etmələr 10,5, habelə xuliqanlıqlar 12,5, yetkinlik yaşına çatmayanların cinayətləri 15,3, ailə münaqişəsi zəminində törədilənlər 3,5, qrup halında baş verənlər 16,6 faiz, odlu silahın tətbiqi ilə törədilənlər 3 fakt, yol-nəqliyyat hadisələrinin sayı 7,6 faiz, qəzalarda xəsarət alanların sayı 19 faiz, həlak olanların sayı 9 faiz azalıb.

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 7





## "Çox adam pullarını yüksək gəlir vədləri ilə piramida sxemlərində itirib" - Eldəniz Əmirov

***"İndiyə qədər çox adam pullarını yüksək gəlir vədləri ilə piramida sxemlərində itirib. Bunun əsas səbəblərindən biri isə kiçik məbləğlərlə qanuni və şəffaf investisiya imkanlarının məhdud olması idi".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O bildirib ki, "Kraudfandinq haqqında" yeni qanun bu baxımdan maraqlı yenilikdir.

""Kraudfandinq" sözü "kütləvi maliyyələşmə" deməkdir. Mahiyyət etibarilə isə yüzlərlə və ya minlərlə insanın kiçik məbləğlərlə eyni biznes layihəsinə investisiya etməsidir. Məsələn, yeni texnologiya hazırlayan bir startapın 300 min manata ehtiyacı varsa, bunu bir nəfərdən deyil, 1000 nəfərin hər birindən 300 manat cəlb etməklə əldə edə bilər. Bu, dünyada uzun illərdir istifadə olunan və həcmi artıq 100 milyard ABŞ dollarını ötmüş maliyyələşmə modelidir. Azərbaycanda da belə hüquqi mexanizmin yaradılması bir neçə istiqamətdə müsbət nəticə verə bilər. Məsələn, kiçik də olsa bank kreditlərinə alternativ maliyyələşmə mənbəyi yaranacaq. Startaplar və kiçik sahibkarlar investor tapmaqda daha çox seçim əldə edəcəklər. Eyni zamanda kiçik yığımları olan vətəndaşlar üçün depozitdən başqa qanuni investisiya alternativi də yaranacaq. Beləliklə, onlar vəsaitlərini qanunla tənzimlənən platformalar vasitəsilə real biznes layihələrinə yönəldə biləcəklər".

İqtisadçı qeyd edib ki, dünyada kraudfandinq bazarının həcmi artıq 100 milyard dolları ötüb və bir çox ölkədə minlərlə startap məhz bu mexanizm vasitəsilə ilk kapitalını cəlb edib: "Amma bir məsələ var ki, bu investisiya növü də risksiz deyil. Ümumiyyətlə, heç bir investisiya risksiz deyil və heç bir qanun uğurlu biznesə zəmanət vermir. Lakin yeni qanun AMB-yə kraudfandinq platformalarının fəaliyyətinə daha effektiv nəzarət etməyə imkan verəcək, investorların hüquqlarının qorunmasını gücləndirəcək. İndi əsas məsələ bu qanunun necə tətbiq olunacağıdır. Əgər etibarlı platformalar formalaşarsa və investorların inamı qazanılarsa, kraudfandinq Azərbaycanda startapların və kiçik sahibkarlığın maliyyəyə çıxışında mühüm rol oynaya bilər".

# "Azərbaycan bütövlükdə regionda sülh və əməkdaşlıqda maraqlıdır"

## Vüqar Bayramov: "Regionda sülh və əməkdaşlıq olarsa, bu daha dayanıqlı və uzunmüddətli iqtisadi inkişafa zəmin yaradar"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, ABŞ-İran müharibəsinin neft qiymətlərini nə qədər artıra biləcəyindən, bu artımın Azərbaycan iqtisadiyyatına necə təsir göstərəcəyindən, minimum əməkhaqqı məbləğində nə qədər artımın gözlənilməsindən və başqa məsələlərdən danışıb.***

***-ABŞ-İran müharibəsi yenidən qızışıb. Bu isə məlum olduğu kimi neft qiymətlərinin kəskin bahalaşmasına səbəb olub. Azərbaycan neftinin qiymətində də bir neçə dollar bahalaşma var. Müharibə uzunmüddətli dövrü əhatə edərsə, neft qiymətləri hansı həddə qədər arta bilər?***

-Neft bazarına hazırda ən çox təsir göstərən faktor Hörmüz boğazından daşımaların həcmidir. Təbii ki, İran müharibəsi fevral ayının sonuncu günündən etibarən neftin dünya bazar qiymətlərində artımlara səbəb olub. Hətta İran ilə ABŞ arasında anlaşmanın əldə edilməsi belə neftin qiymətində kəskin azalmalara gətirib çıxarmadı. "Brent" markalı neftin qiyməti 70 dollar ətrafında dəyişməyə başladı. Bu ondan xəbər verir ki, sonuncu münaqişə olmasa da neftin qiymətində kəskin azalmalar gözlənilmirdi. İran müharibəsi həm də Körfəzdə infrastrukturun zədələnməsinə və neft hasilatının bir sıra ölkələrdə azalmasına gətirib çıxarmışdı. Münaqişə yenidən neftin dünya bazar qiymətinə təsir göstərdi və qiymətlərdə artımlar var. Neftin dünya bazar qiyməti bu kontekstdən yenə də İran müharibəsinin hansı müddəti və coğrafiyanı əhatə etməsindən asılı olacaq. Hörmüz boğazında çətinliklər qalarsa, bu artıq həmin müddətdə neftin qiymətinin yüksək olmasına gətirib çıxaracaq. Əgər müddət və xüsusən də coğrafiya genişlənərsə, bu, neftin dünya bazar qiymətində kəskin artımlara gətirib çıxara bilər.

***- Neftin qiymətinin kəskin artmasının ölkə iqtisadiyyatına hansı müsbət təsirləri olacaq?***

-Təbii ki, Azərbaycan bütövlükdə regionda sülh və əməkdaşlıqda maraqlıdır. Çünki regionda sülh və əməkdaşlıq olarsa, bu daha dayanıqlı və uzunmüddətli iqtisadi inkişafa zəmin yaradacaq. Çünki burda beynəlxalq yükdaşımalar, ölkələrin ticarət əlaqələri və eyni zamanda təbii ki, təhlükəsizlik məsələləri var. Amma bununla belə neftin dünya bazar qiymətinin yüksək olması ölkəyə daha çox valyutanın daxil olmasına imkan yaradır. Xüsusən nəzərə alsaq ki, 2026-cı ilin dövlət büdcəsində bir barrel neftin qiyməti 65 dollar nəzərdə tutulub. Hazırda qiymət, eləcə də orta qiymət daha yüksəkdir. Bu da sözsüz ki, neftin qiymətinin yüksək olması ölkəyə daha çox vəsaitin daxil olmasına gətirib çıxarıb.

***-Neft qiymətlərinin artması fonunda maaş, pensiya və müavinətlərin artmasına yenidən baxıla bilərmi?***

-Sosial tədbirlər, eləcə də sosial təminatın gücləndirilməsi Azərbaycanda hər zaman prioritetdir. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas hədəfi məhz vətəndaşlarımızın sosial təminatının daha da gücləndirilməsidir. O baxımdan maliyyə imkanları çərçivəsində biz mütəmadi olaraq həm sosial istiqamətdə, o cümlədən təbii ki, maaş və digər ödənişlərə vəsaitin ayrılmasını müşahidə edirik. 2025-ci ildə reallaşan sosial paket 3 milyon vətəndaşımızı əhatə etdi və bu istiqamətdə 1,4 milyard manat vəsait ayrıldı. 2026-cı ildə sosial istiqamətə 17,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Artıq bu vəsaitin ayrılmasına başlanılıb. Bu, büdcə xərclərinin təxminən 42%-i deməkdir. Və sözsüz ki, büdcə gəlirləri artdıqca nəticədə sosial proqramlara ayrılan vəsaitin həcminə də artımlar müşahidə olunacaq. Təbii ki, yalnız sosial deyil, həm də Azərbaycan üçün vacib olan işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidən qurulması, eləcə də milli təhlükəsizliyimizin daha da gücləndirilməsi istiqamətinə vəsaitlərin ayrılması prioritetdir. Ona görə də bu prioritet istiqamətlərə büdcə gəlirlərinin artması fonunda daha çox vəsaitin yönəldilməsi müşahidə olunacaq.



***-Bu ilin fevral ayında Əmək Məcəlləsinə minimum əməkhaqqı məbləğinə hər il azı bir dəfə yenidən baxılmasına dair qərar qəbul edilib. Cari ildə minimum əməkhaqqı məbləğinin artırılması məsələsinə baxılacaqmı və baxılarsa nə qədər artım olması gözlənilir?***

-Minimum əməkhaqqının artırılması ilə bağlı Əmək Məcəlləsində dəyişikliklər edildi və yeni dəyişikliklərə əsasən, minimum əməkhaqqı ildə ən azı bir dəfə artırılacaq. Ona görə də minimum əməkhaqqında artım artıq ildə bir dəfədən az olmayaraq həyata keçiriləcək. Dəyişikliklər cənab Prezident tərəfindən bu ilin fevral ayında təsdiq olundu. Bu, o deməkdir ki, məhz dəyişikliklər təsdiq olunduğu növbəti bir il ərzində biz minimum əməkhaqqının ən azı bir dəfə artırılmasını müşahidə edəcəyik. Təbii ki, artıq növbəti dövrdə bu mütəmadi artımlarla müşahidə olunacaq və qanuniləşəcək. Təbii ki, maliyyə imkanları daha çox olacağı halda daha çox artımların həyata keçirilməsi mümkündür. Sadəcə, bizim bu istiqamətdə təkliflərimizdən biri minimum əməkhaqqı ilə orta aylıq əməkhaqqı arasındakı fərqin azaldılmasıdır. Nəzərə alsaq ki, hazırda minimum əməkhaqqı orta aylıq əməkhaqqının təxminən 40%-ni formalaşdırır, amma hədəf ən azı 50%-ə çatmaqdır. Əksər ölkələrdə bu 70% və daha üstündür. Ona görə də təklifimiz ondan ibarətdir ki, mövcud maliyyə imkanları çərçivəsində minimum əməkhaqqında artımlar həyata keçirilən zaman daha yüksək faizlə artımların həyata keçirilməsi məqsədəuyğun olardı. Çünki bu, minimum əməkhaqqı ilə orta aylıq əməkhaqqı arasındakı fərqin azalmasına gətirib çıxarardı.

***-Azərbaycanda real sektorun inkişafını məhdudlaşdıran əsas amillərdən birinin yüksək kredit faizləri olduğu qeyd edilir. Uzun zamandır ölkəmizdə kredit faizlərinin yüksək olması ilə bağlı fikirlər səsləndirilir. Sizcə faizlərin aşağı salınması üçün hansı addımlar atılmalıdır?***

-Etiraf etmək lazımdır ki, Mərkəzi Bank tərəfindən kredit faizlərinin optimallaşdırılması ilə bağlı işlər həyata keçirilib. Sözsüz ki, bu, inzibati müdaxilə ilə reallaşmamalıdır. Çünki bankların cəlb etdiyi vəsaitlərin xərci azalmalıdır ki, banklar daha aşağı faizlə kreditlər təklif edə bilsinlər. Reallıq bundan ibarətdir ki, bank faizləri yüksəkdir. Bu da birmənalı şəkildə həm vətəndaşlarımızın daha yüksək faizlə borclanmasına, həm də real sektorun daha bahalı maliyyə resurslarını əldə etməsinə gətirib çıxarır. Bunun üçün təbii ki, depozit faizlərinin də optimallaşdırılmasına ehtiyac var. Bankların cəlb etdiyi vəsaitin bir hissəsi depozitlər hesabına formalaşır. Depozit faizləri yüksək olanda kredit faizləri də yüksək olur, bu da kreditləşmənin bahalaşmasına gətirib çıxarır. Amma eyni zamanda real sektorda korporativ idarəetmənin formalaşması vacib məqamlardandır. Hazırda kommersiya banklarında təxminən 3,8 milyard manat passiv vəsaitlər var. Hansı ki, banklar həmin vəsaiti yerləşdirmirlər və ya yerləşdirə bilmirlər. Əslində onu yerləşdirməklə gəlir əldə etməyə çalışırlar və burda risk faktoru və digər amillər nəzərə alınmaqla qərarlar verilib. Real sektor nə qədər çox korporativ idarəetmədən istifadə edərsə, şəffaf mexanizmlər qurarsa, bu, banklar tərəfindən biznesə daha çox kreditin ayrılmasına və təbii ki, rəqabət nəticəsində faizlərin aşağı düşməsinə gətirib çıxara bilər.

***Anar Kəlbiyev***

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 8



# Ramiz Mehdiyevin məşhur ailə şirkəti batıb...

## ... yoxsa qanunlara qarşı çıxır? - 25 min manatlıq vergi borcu ilə bağlı böyük şübhə!

***Vaxtilə Azərbaycanın ən böyük şərab istehsalçılarından biri olan "Fireland Vineyards" MMC-nin (VÖEN - 1301263921) dövlət büdcəsinə 25 min 830 manat 90 qəpik vergi borcu var.***

"Fireland Vineyards" MMC xammal kimi əsasən Novxanı qəsəbəsində "Duzlu göl" adlandırılan ərazinin yaxınlığında yetişdirilən üzümdən istifadə edib. Şirkətin Novxanıda A. Şıxlinski küçəsində "Marandi Wine Company" adlandırılan şərab zavodu da fəaliyyət göstərib.

"Yeni avaz" qeyd edir ki, şirkətin təsisçiləri arasında Prezident Aparatının sabiq rəhbəri, AMEA-nın keçmiş prezidenti, dövlət çevrilişinə cəhddə ittiham olunan Ramiz Mehdiyevin həyat yoldaşı, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Mehdiyeva Qalina Yuriyevna da olub. Əvvəlki illərdə şirkətin vergi borcu daha yüksək olub. Hətta 2021-ci ildə şirkətin vergi borcu yarım milyon manata kimi yüksəlib.

2021-ci ildə "Fireland Vineyards" MMC-yə rəhbərlik edən Səidov Elmar Çingiz oğlu Mehdiyeva Qalina Yuriyevna barəsində məhkəmə iddiası da qaldırıb.

"Unikal"ın əldə etdiyi məlumata görə, Səidovun iddiasına görə, Ramiz Mehdiyevin ailəsi, yəni həyat yoldaşı Qalina Mehdiyeva və oğlu Timur Mehdiyev onun külli miqdarda borclanmasına səbəb olublar. Lakin nə ilk, nə də sonrakı məhkəmə instansiyalarında bu iddianın təmin edilmədiyi deyilir. İstisna deyil ki, bu, Mehdiyevlərin prosesə müdaxiləsinin nəticəsidir.

Yeri gəlmişkən, haqqında danışılan məhkəmə iddiası qaldırılarkən də adıçəkilən şirkətin həmin vaxt vergi borcu varmış. O vaxt bu borc məbləği isə 128 767, 72 AZN təşkil edib.

Hüquqi ünvanı Yasamal rayonu, Həsən bəy Zərdabi pr., ev 77, m. 40-da yerləşən "Fireland Vineyards" MMC-nin hazırda qanuni təmsilçisi yoxdur.

"Unikal"ın araşdırması zamanı o da məlum olub ki, elə həmin Səidov Elmar Çingiz oğlu Ramiz Mehdiyevin həyat yoldaşı barədə məhkəmə iddiası qaldırmadan iki il əvvəl - 2019-cu ildə külli miqdarda mənimsəmədə ittiham edilib. Sözügedən tarixdə aparılan araşdırma ilə müəyyən edilib ki, E.Səidov tərəfindən götürülmüş 15 milyon manatdan çox pulun məkhaqqı məbləğinin ödənilməsinə, yerdə qalan pulun isə tikinti işlərinin aparılmasına sərf edilələyini rəsmiləşdirməsinə baxmayaraq, qeyri-rəsmi əməkhaqqının kimlərə ödənilməsinə və tikinti materiallarının alınmasına dair heç bir sənəd təqdim edilməyib.

Eyni zamanda Şamaxı rayonunun Muğanlı kəndində və Oğuz rayonunda yetişdirilən üzüm bağlarından yığılmış məhsullardan 22 min manat dəyərində emal edilmiş şərab məhsullarının həcmi nəzərə alınmayıb. Üzüm istehsalı uçotunun düzgün aparılmaması nəticəsində Kənd Təsərrüfatı Nazirliyinə 7 milyon manatdan çox ziyan vurulub.

E. Səidov barəsində Cinayət Məcəlləsinin 179.3.2 (Mənimsəmə; külli miqdarda törədildikdə) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. Lakin sonradan bu cinayət işinin aqibəti ilə bağlı rəsmi açıqlama yayılmayıb.

"Unikal"ın araşdırması zamanı o da müəyyənləşib ki, iki il əvvəl Mehdiyevlərin adıçəkilən ailə şirkətinin - "Fireland Vineyards" MMC-nin vergi borcu 128 min manatdan 20 min manatadək azalıbmış. Lakin son vaxtlar bu borc artmaqdadır və hazırda 25 min manatı ötüb. Lakin maraqlısı odur ki, bir zamanlar adı Azərbaycanın ən böyük şərab istehsalçılarından biri kimi önə çıxan "Fireland Vineyards" indi doğrudanmı bu 25 min manatlıq borcu ödəmək iqtidarında deyil? Ortada iki versiya var: ya Mehdiyevlər qanunvericiliyin tələblərinə laqeydlik göstərirlər, onu saymırlar, ya da sözügedən şirkət batıb.

Məlumat üçün bildirək ki, vergilərin gecikdirilməsi və ya ümumiyyətlə ödənilməməsi vergi borcunun yaranmasına səbəb olur. Bu halda vergi orqanları tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş müxtəlif tədbirlər tətbiq edilir. Həmin tədbirlər vergi intizamını təmin etmək və dövlət büdcəsinə daxilolmaları qorumaq məqsədi daşıyır. Həmin tədbirlər sırasında peniya hesablanması, bank hesablarının dondurulması, maliyyə sanksiyalarının tətbiqi, əlavə vergi yoxlamalarının aparılması, vergi borcunun əmlak hesabına tutulması və s. daxildir.



Xatırladaq ki, bu ilin martında Mehdiyevlərin çoxsaylı gəlir qaynaqlarından biri - "Bank BTB" bağlanıb. Belə ki, Mərkəzi Bankın İdarə Heyətinin 05 mart 2026-cı il tarixli Qərarı ilə, qanunvericiliyə müvafiq olaraq, "Bank BTB" ASC-nin müraciəti əsasında onun bank olmayan kredit təşkilatına (BOKT) çevrilməsi formasında yenidən təşkilinə qabaqcadan razılıq verilib. Nəticədə ötən ay "Bank BTB" ASC öz təşkilati-hüquqi formasını və adını dəyişdirərək "T-Kredit" MMC Bank Olmayan Kredit Təşkilatına (BOKT) çevrildiyini elan edib. Bankın aktivləri və öhdəlikləri "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə (ABB) ötürülüb.

İddialara görə, Ramiz Mehdiyevin cinayət məsuliyyətinə cəlb olunaraq ev dustağına çevrilməsindən sonra onun nəhəng ailə biznesində çöküş sürətlənib və "Bank BTB"-nin bağlanması həmin prosesin göstəricisidir. İndi isə "Fireland Vineyards"ın qanuni təmsilçisiz qalması və 25 min manatlıq vergi borcunu ödəyə bilməməsi sözügedən iddiaların növbəti təsdiqi sayıla bilər.

***Sənan Mirzə***

# Ceyhun Bayramovdan Zəngəzur dəhlizi ilə bağlı açıqlama



***Zəngəzur dəhlizinin Ermənistandan keçən avtomobil və dəmiryolu layihəsi ilə bağlı işlərin getdiyi Azərbaycan tərəfinə bildirib.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

Nazir qeyd edib ki, bu layihə ABŞ tərəfindən dəstəklənir: "Bu istiqamətdə danışıqlar ABŞ-Ermənistan arasında aparılır. Ancaq eyni zamanda TRİPP-in giriş və çıxış hissəsi Azərbaycan ərazisidir. Ona görə biz ABŞ-dən olan tərəfdaşlar tərəfindən məlumatlandırılırıq. Bizə verilən vədlər ondan ibarətdir ki, proses gedir, hazırda sənədlərin hazırlanması mərhələsidir".

# MİQ imtahanlarının vaxtı açıqlandı

***Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsinə 14 iyuldan etibarən start verilməsi nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bu barədə "Azərbaycan müəllimi"nə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin İmtahan və qiymətləndirmə şöbəsinin müdiri Nurlan İsmayılbəyli məlumat verib.

O bildirib ki, ölkə üzrə 23 müxtəlif şəhərdə 56 müxtəlif imtahan mərkəzi hazır vəziyyətə gətirilib: "Bununla da 11 mindən artıq namizədin eyni vaxtda imtahan verməsinə şərait yaradılır. Ötən illərdə ibtidai sinif istisna olmaqla, digər bütün fənn və bölmələr üzrə imtahanlar eyni gündə və saatda təşkil olunurdu. Cari ildə bu imkanlar nəticəsində və imtahanda iştirak edəcək namizədlərin sayı nəzərə alınmaqla ibtidai sinif üzrə iştirakçılar da eyni gündə və saatda imtahan verə biləcəklər".

# Sabiq bələdiyyə sədrinin cinayət işi məhkəməyə göndərildi

***Abşeron rayonu Xırdalan bələdiyyəsinin sədri vəzifəsində işləmiş Musayev Orxan Elxan oğlunun qanunsuz əməlləri ilə bağlı Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsindən daxil olmuş material əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşıb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, istintaqla Orxan Musayevin 2020-2025-ci illərdə qeyd olunan vəzifədə işləyərkən vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Xırdalan bələdiyyəsinə məxsus 1.92 ha torpaq sahəsini 75 şəxsə qanunvericiliklə müəyyən edilmiş qiymətdən ucuz qiymətə satmaqla 600 min manatdan artıq ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, ibtidai istintaq zamanı cinayət işi üzrə toplanmış sübutlar əsasında təqsirləndirilən şəxsin öz qulluq mövqeyindən istifadə etməklə etibar edilmiş külli miqdarda bələdiyyə əmlakını mənimsəmə və israf etmə yolu ilə talamasına, habelə tamah niyyəti ilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığı törətməsinə dair qanunsuz əməlləri də ifşa olunub.

Toplanmış sübutlar əsasında Orxan Musayevə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda ziyan vurmaqla mənimsəmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərində sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilməklə barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 9






# Hadrut sakinlərinin nəzərinə! - Qəbul başlanılır

***İyul ayının 9-dan başlayaraq Xocavənd rayonunun Hadrut qəsəbəsində torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) - eagro.az saytı vasitəsi ilə müraciətlərin qəbuluna başlanır. Hadrut qəsəbəsində məskunlaşan və yaşayan sakinlərdən müraciətlərin qəbulu prosesi avqustun 9-u günün sonunadək davam edəcək.***

"Unikal" xəbər verir ki, Hadrut qəsəbəsi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli 236 nömrəli Fərmanının 4.1-ci bəndi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 dekabr tarixli 544 nömrəli qərarı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən həyata keçiriləcək.

Torpaq sahələri minimum 5 ha təşkil etməklə suvarılan ərazilər olub, əkin üçün hazır vəziyyətə gətirilmiş kənd ətrafında yerləşən torpaqlardır. Hadrut qəsəbəsində birillik və çoxillik bitkilərdən - şaftalı, nektarin, ərik, nar, alma, şabalıd, xurma, armud, gilas, qoz, fındıq, üzüm (süfrə və texniki), çiyələk, qarağat, mavigilə (dibçəkdə), moruq, pomidor, xiyar, badımcan, bibər, soğan, sarımsaq, tərəvəz lobyası, mətbəx çuğunduru, kök, kələm, kartof, buğda, arpa, qarğıdalı (dən və silos üçün), soya, noxud, mərcimək, tütün, yonca, xaşa, müxtəlif ot qarışıqlarının (vika, yulaf, arpa, çovdar) əkilməsi nəzərdə tutulur.

Əkin sahələrində müasir damlama və çiləmə suvarma sisteminin olması tələb edilir.

Hadrut qəsəbəsinə köçən sakinlər aşağıdakı ardıcıllıqla torpaqların güzəştli qaydada əkinlərin aparılması məqsədi ilə istifadəsi üçün müraciət edə bilərlər:

EKTİS-də qeydiyyatdan keçmək (avtomatlaşdırılmış qaydada fermer elektron kabinetinə sahib olmaq)

Elektron kabinet "Müraciətlərim" bölməsində "torpaq icarəsinə müraciət" - "Hadrut" seçməklə ərizə formasını doldurmaq.

Şəxsiyyət vəsiqəsi üzrə qeydiyyat yerindən asılı olmayaraq faktiki yaşayış yerinin Hadrut qəsəbəsi olduğunu Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin "e-polis" tətbiqində qeyd etmək.

Qeyd edək ki, sonrakı mərhələlərdə müraciət edən şəxslərə təlimlərin keçirilməsi, müqavilələrin imzalanması və ərazilərin yerində tanıdılması həyata keçiriləcək. İcarə müqavilələrinin müddəti birillik bitkilər və yonca üçün 2 il, çoxilliklər üçün 5 il təşkil edəcək və istifadə nəticələrinə müvafiq olaraq uzadılacaq.

Fermerlər əlavə məlumat üçün Xocavənd Dövlət Aqrar İnkişaf Mərkəzinə (tel: 077-577-93-97, 050-533-68-71, email: xocavend@agro.gov.az ) müraciət edə bilər.

# 25,3 min şəxsə əlillik təyin olunub

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi tərəfindən bu ilin birinci yarımilində 25,3 min şəxsə əlillik təyin edilib.***

ƏƏSMN-dən "Unikal"a verilən məlumata görə, onlardan 10,9 min şəxsə ilkin, 14,4 min şəxsə isə təkrar əlillik təyinatı aparılıb.

Qeyd olunub ki, əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən, tibb müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir. Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir.

# Monopolistlərin bahalaşma oyunu

## Ətin qiymətini ucuzlaşdırmağın yolu açıqlandı - İlginc təfərrüatlar




***Bu ilin yanvar-aprel aylarında Azərbaycan 17,4 milyon ABŞ dolları dəyərində 4 min 412 ton iribuynuzlu heyvan əti (təzə və yaxud soyudulmuş, dondurulmuş) idxal edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin göstəricisindən dəyər ifadəsində 40 %, kəmiyyət olaraq 39 % çoxdur.***

Hesabat dövründə Azərbaycan Ukraynadan 10,8 milyon ABŞ dolları dəyərində (1 il əvvəlki göstəricidən 74 % çox) 2 min 158 ton (+45 %), Braziliyadan 3,5 milyon ABŞ dolları dəyərində (+33 %) 1 min 491 ton (+78 %), Belarusdan 1,6 milyon ABŞ dolları dəyərində (-13 %) 340 ton (-18 %), Hindistandan 1,1 milyon ABŞ dolları dəyərində (-11 %) 319 ton (-21 %), Rusiyadan 231 min ABŞ dolları dəyərində (+88 %) 72 ton (+5 dəfə) məhsul alıb.

Qeyd edək ki, marketlərin əksəriyyətində istehlakçılara xaricdən idxal olunan ətlər satılır. Ət idxalı artsa da, qiyməti heç də ucuz deyil.

İqtisadçı Eyyub Kərimli bildirib ki, bu gün ölkəmizə idxal olunan mal ətinin qiyməti təxminən 6-8 manat arasında formalaşır (musavat.com): "Bunun üzərində logistika, ədv, gömrük rüsumu, saxlama xərcləri əlavə olunur, bu da 50 faizə qədər artım deməkdir. Düşünürəm ki, buna görə maya dəyəri 12-13 manat formalaşır. Bu səbəbdən marketlərdə idxal olunan mal ətinin qiymətinin 17-20 manat arasında dəyişdiyini müşahidə edirik. Qiymətin yüksək olması həm də tələbatla bağlıdır. Vəziyyəti tənzimləmək üçün idxalı şaxələndirməliyik. Dövlət ciddi, şəffaf rəqabət mühitinin formalaşmasına nəzarət etməlidir. Digər tərəfdən bazarda daha çox payı olan pərakəndə ticarətçilərin sövdələşməsinin qarşısı alınmalıdır".

Ekspertin fikrincə, bəzi hallarda pərakəndə ticarət obyektləri yüksək tələbatı nəzərə alaraq süni qiymət artımına, daha çox gəlir əldə etməyə çalışırlar: "Bu da bahalığın səbəblərindən biridir. İdxalçıların arasında razılaşma da mümkündür. Sözsüz ki, ətin qiymətinin ucuzlaşması üçün yerli istehsalı daha çox artırmalıyıq və xarici bazarlardan asılılığı azaltmağa çalışmalıyıq".

Xatırladaq ki, ötən ilin payızında ətin qiymətində növbəti artım müşahidə edilərkən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bunu işbazların süni bahalaşma təşəbbüsü kimi qiymətləndirmişdi. O, yerli KİV-ə açıqlamasında demişdi ki, bəzi işbazlar vəziyyətdən sui-istifadə edərək qiymətləri süni şəkildə artırmağa meyil göstərirlər: "Süni qiymət artımı, təkcə ət məhsullarında deyil, digər ərzaq məhsullarında da müşahidə olunur. Məsələn, kiçik bir yağıntı və ya məhdudiyyət yaranan kimi, bazarda dərhal bahalaşma halları baş verir".

Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev isə ötən ay keçirilən mətbuat konfransında bildirmişdi ki, yerli ət bazarında qiymətlərin sabitləşməsinin istehsalın artırılması və maya dəyərinin azaldılması hesabına təmin olunacağı gözlənilir. O, əlavə etmişdi ki, əsas məqsəd ət istehsalını artırmaq, məhsuldarlığı yüksəltmək və istehsal xərclərini azaltmaqdır. "Ət istehsalının maya dəyərinin uyğun səviyyədə formalaşdırılması hesabına bazarda sabitlik yaranacağını düşünürük".

Lakin bir çox ekspertlər bu sabitliyin yaranması üçün bəzi subyektiv amillərin aradan qaldırılmasına diqqət çəkirlər. Bu sırada ilk olaraq örüş yerlərinin, təbii biçənəklərin, hətta çoxillik yem bitkilərinin altında olan sahələrin kəskin azalmasını vurğulamaq lazımdır. Belə sahələr ya məmurlar, pullu şəxslər tərəfindən ələ keçirilib, ya da pambıqçılığın, taxılçılığın inkişafı məqsədilə təyinatından uzaqlaşdırılıb. Nəticə etibarilə istər fermerlərin, istərsə də sadə kəndlilərin heyvandarlıqla məşğul olmaq imkanları minimuma enib. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ötən il rəsmi mətbuata açıqlamasında bununla bağlı diqqətçəkən fikirlər səsləndirmişdi. Sitat: "Hazırda Beyləqan rayonunun Haramı düzü adlanan ərazi ayrı-ayrı oliqarxlar tərəfindən ələ keçirilib. Bununla da, rayonda, bir növ, heyvandarlıq çökdürülüb. Çünki ərazidəki örüş yerləri əkin sahələrinə çevrilib. Həmin ərazilərdə aparılan əkinçilik isə heç də rasional deyil. Əksəriyyəti dövlətin subsidiya proqramlarından yararlanmaqla taxıl əkir. Lakin hektardan 12-15 ton məhsul götürür. Bu isə çox aşağı məhsuldarlıq sayılır. Amma həmin torpaqları heyvandarlara versələr, daha yaxşı olar. Bu da onu göstərir ki, bələdiyyələr balanslarında olan torpaqlardan rasional istifadə etmirlər. Nəhayət, digər səbəb isə bazar alverçilərinin fəallaşmasıdır. Bu gün fərdi təsərrüfatlarda yetişdirilən heyvanları birbaşa satmaq, demək olar ki, mümkün deyil. Çünki alverçilər buna imkan vermirlər. Onlar da aldıqları heyvana əlavə qiymət qoyurlar".

Ətin ucuzlaşmasına imkan verməyən subyektiv faktorlardan biri isə idxaldakı inhisarçılıqdır. Ekspertlər bildirirlər ki, Azərbaycanda ət bazarında daxili monopoliya yaratmaq o qədər də asan iş deyil. Kimə gedib demək olar ki, sən heyvan saxlama? Ona görə də bu bazarda inhisarçılıq istehsal prosesində deyil, satış və idxal üzərində qurulub.

Bütün bu deyilənlər fonunda əgər ətin qiymətində ucuzluq və sabitlik yaratmaq istəyiriksə, ilk növbədə sadalanan subyektiv amillər, süni bahalaşma cəhdləri əngəllənməlidir. Əks təqdirdə real pozitiv dəyişikliklərdən ümidverici danışmaq çətin məsələdir...

***Toğrul Əliyev***

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 10



# Cahangir Əsgərovun bir ildə qazandığı fantastik pullar...

## Təkcə "Premium Bank"dan 10 milyon manat əldə edən keçmiş AZAL “şef”inin gəlirləri göz qamaşdırır

***”Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) keçmiş prezidenti Cahangir Əsgərovun ”Premium Bank”dan qazancı məlum olub.***

Belə ki, AZAL-ın sabiq prezidenti Cahangir Əsgərovun əsas səhmdarı olduğu “Premium Bank” ASC 2025-ci il üzrə səhmdarlarına 10 milyon 35 min manat dividend elan edib. Bu isə ondan öncəki ödənilmiş dividend məbləği ilə müqayisədə 42,2% və ya 2 milyon 979 min manat çoxdur. 2024-cü il üzrə səhmdarlara 7 milyon 56 min manat dividend ödənilmişdi.

17 yanvar 2025-ci il tarixində Bankın əsas səhmdarı Zərifə Həmzəyeva vəfat etdikdən sonra nizamnaməyə əsasən onun səhmləri həyat yoldaşı Cahangir Əsgərova ötürülüb.



Zərifə Həmzəyeva bankda 84,5 % paya malik olub. Bundan sonra Cahangir Əsgərov bankdakı payını bir qədər də artırıb və 86,25%-ə çatdırıb.

Son nəticədə ötən il üzrə bölüşdürülən dividendin 8 milyon 655 min manatı Cahangir Əsgərova çatıb. Bu isə o deməkdir ki, sabiq AZAL prezidentinin bankdan əldə etdiyi illik gəliri 2 milyon 693 min manat və ya 45,2% artıb.

Cahangir Əsgərovun bankdakı payının artımı “VIP Aviation Services” MMC-nin payının 15,22%-dən 13,47%-ə və Elvira Əhmədovanın payının 0,31%-dən 0,28%-ə enməsi hesabına olub. Bu isə dividend həcmində artım olsa da pay nisbətinə uyğun olaraq digər səhmdarların dividendlərinə təsir edib.

Ötən il üzrə “VIP Aviation Services” MMC-nin dividend gəliri təxminən 1 milyon 352 min manat təşkil edib. Bu göstərici əvvəlki ildəki 1 milyon 73 min manatla müqayisədə 279 min manat və ya 26% çoxdur. Bankın kiçik səhmdarı Elvira Əhmədovaya isə təxminən 28 min manat dividend ödənilib (plat.az).

Onu da deyək ki, C.Əsgərov kifayət qədər nəhəng biznes imperiyasına sahibdir. Bu sıraya:

1. Batumidə 31 milyon dollar dəyərində ”Grand Gloria” hoteli;

2.Tiflisdə dəyəri milyonlarla dollar olan ”Tiflis Palace” hoteli;

3.Tiflisdə bahalı ”Veranda” restoranı;

4. Batumidə bir neçə milyon dollar dəyərində “Golden Palace” hoteli və kazino;

5. Naftalanda ”Garabag Resort and Spa” 5 ulduzlu otel və müalicə mərkəzi;

6. İsmayıllı rayonu, Bədo Bulağının yaxınlığında, 8 hektarlıq ərazidə ”Vəhsudan düşərgəsi”;

7. Qala qəsəbəsində 265 ha badam bağı;

9. Sahəsi 12.500 kvadrat metrdən çox olan “Gazelli” kosmetika fabriki;

10. “Soroka Limited” (Londonda);

11. 18.4 milyon dollar aktivi olan ”Gazelli İnternational Limited” (Londonda);

12. 41 milyon dollar aktivi olan “Gazelli Art House Limited” (Londonda);

12. Gürcüstan, Azərbaycan, Ukrayna və Türkiyədə ”Gazelli” gözəllik və masaj salonları şəbəkəsi;

13. ”C3 - CIII Limited” (Londonda);

14. “D.M.Z.D.Tekstil Dış Ticaret Limited” (Türkiyədə);

15. ”Set İntelligence Limited”;

17. İtalyan kürəkəni İqnasio Koraçinin direktoru olduğu “Airport Servicing Company Limited” (Londonda);

18. yenə İtalyan kürəkəninə aid “ASC Handling İtalia Limited” (Londonda);

19. “Cargo İnvest Limited” (Londonda);

20. Almaniyada “Hahn Cargo Services GmbH” (illik dövriyyəsi 4.83 milyon dollar);

21. İngilis kürəkəni Robert Nortonun direktoru olduğu “Verisart Limited” (London) kimi şirkətlər daxildir. Üstəlik, bu, Əsgərov və ailə üzvlərinin sahib olduğu biznes subyektlərinin heç də hamısı deyil.

AZAL-ın sabiq “şefi”nin ötən il təkcə ”Premium Bank”dan 10 milyon manat əldə etdiyini və yuxarıda adları sadalanan şirkətlərdən də qazandıqlarını nəzərə alsaq, onda Cahangir müəllim yalnız 2025-ci ildə fantastik dərəcədə varlandığını, sərvətinə sərvət qatdığını düşünmək mümkündür.

Xatırladaq ki, hazırda 76 yaşı olan Əsgərov 1996-2023-cü illərdə AZAL-a rəhbərlik edib. Bu dövrdə sözügedən QSC əsasən zərərlə işləyib və yüz milyonlarla manatlıq borc bataqlığına yuvarlanıb.

“AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıb. Bütün aeroportlar dövlət tərəfindən tikilib. Bəs bunun dövlətə verdiyi mənfəət, gəlir nədir?” - Prezident ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı 2020-ci ilin avqustunda videoformatda keçirdiyi müşavirədə bildirmişdi.

“Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır? Bu, nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək?” deyə ölkə başçısı əlavə etmişdi.

Onu da deyək ki, AZAL borc bataqlığına sürükləndiyi bir vaxtda Cahangir müəllimin ailə biznesi misli görünməmiş sürətlə böyüyüb, onun özü isə kifayət qədər oliqarxlaşaraq ölkənin ən böyük biznes imperiyalarından birinə sahib olan məmura çevrilib. Əksəriyyət Əsgərovun bu “uğurunu” onun korrupsiya fəaliyyti ilə izah edir.

***Toğrul Əliyev***



# Valideynlərin bilməli olduğu əsas məqamlar - Elektron qəbul başladı

***Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu prosesi artıq “mygov” platforması üzərindən həyata keçirilir. Vətəndaşlar övladlarını rəqəmsal qaydada növbəyə yazdırmaq və müraciətlərini idarə etmək imkanına sahibdirlər. Elektron sənəd qəbulu xidməti yalnız my.gov.az veb portalında əlçatandır.***

”Unikal” xəbər verir ki, regional təhsil idarələrinin və Naxçıvan Muxtar Respublikasının tabeliyində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələri üçün elektron növbələrin yaradılması prosesi 7 iyul tarixindən etibarən aktivləşdirilib.

Bakı şəhəri üzrə elektron növbələr isə bu gündən etibarən mərhələli şəkildə aktivləşdiriləcək. Belə ki, 2021 və 2022-ci il təvəllüdlü uşaqlar üçün növbələr saat 11:00-da, 2023, 2024 və 2025-ci il təvəllüdlü uşaqlar üçün isə saat 15:00-da istifadəyə veriləcək.

Qeyd edək ki, əvvəllər bq.edu.az informasiya sistemində uşağı hansı valideyn qeydiyyata alıbsa, “mygov” platformasında da müraciət məhz həmin valideynin şəxsi kabineti üzərindən edilməlidir. Uşaq hansı valideynin hesabına əlavə olunubsa, qeydiyyat prosesi yalnız həmin hesab vasitəsilə davam etdirilə bilər.

Xidmətdən istifadə etmək üçün Azərbaycan Respublikası vətəndaşı olan uşağın şəxsiyyət vəsiqəsinin olması zəruridir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdən müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi, yaşayış icazəsi olmayan əcnəbilərdən isə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Himayə Sənədi tələb olunur.

Sistemə keçid mərhələsində yalnız 2021-2025-ci illərdə anadan olmuş uşaqların məlumatları əks olunur və onların qeydiyyatı mümkündür.

Valideynlər müraciət zamanı ən çox üç məktəbəqədər təhsil müəssisəsi seçə bilərlər. Seçilən bağçalardan hər hansı birinə qəbul təsdiqləndikdə, digər aktiv növbələr avtomatik ləğv olunur.

Hazırda hər hansı məktəbəqədər təhsil müəssisəsində qeydiyyatda olan uşaqlar üçün yenidən müraciət etməyə ehtiyac yoxdur. Lakin valideyn övladını başqa bağçaya köçürmək istəyərsə, yeni müraciət edə bilər. Yeni bağçaya qəbul təsdiqləndikdən sonra müraciətin yekunlaşdırılması üçün uşağın hazırda təhsil aldığı bağçadan ayrılması tələb olunur.

# Bu peşə liseyinə xanım direktor təyin edildi




***Salyan Peşə Liseyində yeni təyinat olub.***

”Unikal” xəbər verir ki, Arzu Əliyeva Sübhan Rahim oğlu Cəbrayılov adına Salyan Peşə Liseyinin direktoru vəzifəsinə təyin edilib.

Arzu Əliyeva 2012-ci ildə Bakı Avrasiya Universitetində “Azərbaycan dili və ədəbiyyatı” ixtisası üzrə bakalavriat təhsili alıb. Azərbaycan Dövlət İqtisad Universitetində “Dövlət və bələdiyyə idarəetməsi” ixtisası üzrə əlavə təhsil alır.

Əmək fəaliyyəti dövründə Saatlı və Salyan rayonlarının ümumi təhsil müəssisələrində müəllim, direktor müavini və direktor vəzifələrində çalışıb.

2024-cü il 30 aprel tarixində Salyan rayonu Çadırlı kənd ümumi orta məktəbinə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsinə təyin olunub, 2025-ci il 15 iyun tarixindən isə həmin məktəbin direktoru vəzifəsində fəaliyyətini davam etdirib.




## Milli Kitabxanada "Yazıçı, publisist Şamo Arif - 90" adlı kitab sərgisi keçirilib

***9 iyul 2026-cı il tarixində Milli Kitabxanada yazıçı, publisist Şamo Arifin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Yazıçı, publisist Şamo Arif - 90" adlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.***

Sərgidə Şamo Arifin həyat və yaradıcılığı haqqında, əsərləri - romanları, povest və hekayələri, tərtibçisi və redaktoru olduğu Azərbaycan dilində ədəbiyyatlar nümayiş olunur.

Arif Süleyman oğlu Rəhimov (Şamo Arif) 1936-cı il iyulun 9-da Qubadlı rayonunun Əyin kəndində anadan olub. Orta təhsilini Bakıda 7 saylı orta məktəbdə tamamladıqdan sonra, 1953-cü ildə Moskva Dövlət Universitetinin fizika fakültəsinə daxil olub və təhsilini uğurla başa vurub. 1954-1959-cu illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti geoloji kəşfiyyat fakültəsində təhsil alıb.

1959-2003-cü illərdə Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunda fəhlə, texnik, baş texnik, mühəndis, baş mühəndis, kiçik elmi işçi və aparıcı elmi işçi kimi fəaliyyət göstərmiş, eyni zamanda "Azərekspertiza" Birliyinin direktor vəzifəsini icra edib. 1965-ci ildə müdafiə etdiyi "Kiçik Qafqazın şimal-şərq dağətəyinin geotektonik inkişafının riyazi üsulla öyrənilməsi və Mezozoy çöküntülərinin neft-qazlılıq perspektivliyi" mövzusunda namizədlik dissertasiyası ona geologiya-mineralogiya elmləri namizədi dərəcəsi qazanıb.

Elmi fəaliyyəti ilə yanaşı, Şamo Arif ədəbi yaradıcılıqla da məşğul olub.

Ədəbi fəaliyyətinə 1957-ci ildə "Azərbaycan qadını" jurnalında çap olunan "Qoşa çinar" hekayəsi ilə başlayıb, 1964-cü ildə "Göz dağı" povesti və "Anamın yuxusuna girməsi" romanını nəşr etdirib. 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olub və "Qızıl qələm" mükafatına layiq görülüb. Onun sonuncu romanı "Qınamayın məni" adlanır. Bundan əlavə, Şamo Arif publisistik və elmi məqalələr dərc edib, həmçinin "Dədə Süleyman" adlı xatirələr toplusunu hazırlayıb.

Onun adı Mərkəzi "Bakı" seysmologiya stansiyasında əbədiləşdirilib. Alimin tədqiqatları yer qabığının quruluşunun öyrənilməsi, zəlzələlərin təhlili və neft-qaz perspektivlərinin müəyyənləşdirilməsi sahəsində elmi metodların inkişafına əhəmiyyətli töhfə verib.

## 1 milyon 48 min baş heyvan identikləşdirilib



***Azərbaycanda indiyədək 1 milyon 48 min baş heyvan identikləşdirilib.***

Bu barədə "Unikal"a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən məlumat verilib.

Bildirilib ki, identifikasiya heyvanların mənşəyinin və hərəkətinin izlənilməsinə, peyvəndləmə, müalicə və digər baytarlıq tədbirlərinin dəqiq uçotunun aparılmasına xidmət edir.

# Bakıda bağ evlərinin qandonduran qiymətləri

## Ötən illə müqayisədə ağlasığmaz fərq: azı 1000-2000 manatlıq bahalaşma var!

***Yay mövsümünün qızğın dövründə Bakı və Abşeron çimərliklərinə axın artıb. İstirahət planı quranların əsas maraqlandığı məsələlərdən biri isə pullu çimərliklərə giriş və bağ evlərinin kirayə qiymətləridir.***

Həmin qiymətlərlə bağlı araşdırma göstərib ki, bu il tanınmış pullu çimərliklərin əksəriyyətində giriş qiymətləri ötən illə müqayisədə ya dəyişməyib, ya da 5-10 manat artıb.

Bağ evlərində isə gündəlik kirayə qiymətləri ərazilərə görə dəyişir və bir çox hallarda yayın cırhacırında həqiqətən adamın damarda qanını dondurur.

Belə ki, bu günlərdə axar.az-ın araşdırması zamanı məlum olub ki, Bilgəhdə günlük kirayə qiymətləri 3 otaqlı - 150-250 manat, 4 otaqlı - 200-400 manat; Mərdəkanda 2 otaqlı - 150-200 manat, 3 otaqlı - 150-250 manat; 4 otaqlı - 150-400 manat, 5 otaqlı və daha böyük - 200-700 manat; Şüvəlanda 2 otaqlı - 200-250 manat, 3 otaqlı - 200-350 manat, 4 otaqlı - 200-500 manat, 5 otaqlı və daha böyük - 250-600 manat; Buzovnada 2 otaqlı - 400 manat, 3 otaqlı - 200-400 manat; 4 otaqlı - 200-450 manat; 5 otaqlı və daha böyük - 220-500 manat; Novxanıda 2 otaqlı - 150-350 manat, 3 otaqlı - 150-350 manat, 4 otaqlı - 200-400 manat; 5 otaqlı və daha böyük - 250-500 manat; Pirşağıda 2 otaqlı - 100-200 manat; 3 otaqlı - 150-300 manat; 4 otaqlı - 170-500 manat; 5 otaqlı və daha böyük - 200-550 manat; Nardaranda ("Sea Breeze" ərazisi) 1 otaqlı - 150-260 manat, 2 otaqlı - 200-350 manat, 3 otaqlı - 250-700 manat, 4 otaqlı - təxminən 500 manat, 5 otaqlı və daha böyük - aylıq kirayə qiymətləri 8 000-13 000 manat arasında dəyişir. Türkanda günlük kirayə qiymətləri 3 otaqlı bağ evi üçün 200-250 manat; 4 otaqlı - 250-450 manat, 5 otaqlı və daha böyük - 250-450 manatdır.

Onu da qeyd edək ki, qiymətlər evin təmir vəziyyəti, dənizə yaxınlığı və digər şəraitdən asılı olaraq dəyişə bilir.

Əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə ötən il Bakıda bağ evlərinin qiymətindən danışarkən bildirmişdi ki, hər il yay mövsümü başlayarkən, xüsusilə iyun, iyul, avqust aylarında paytaxtın bağ evi kirayəsi ilə məşğul olan rieltorlar, ev sahibləri ənənəvi olaraq evlərin qiymətini artırırlar: "Bu, təbiidir, ehtiyac yaranır, təklif çoxalır, qış aylarında kirayə verə bilmədikləri evi yay aylarında daha yüksək qiymətə verməklə gəlirlərini kompensasiya etmək istəyirlər... Əvvəllər bağ evləri daha çox mövsümi verilirdisə, indi günlük kirayələr artıb...".

Ekspertin sözlərinə görə, mənzillərdə dənizə yaxınlıq məsafəsindən asılı olaraq qiymətlər dəyişir: "Dənizə daha yaxın mənzillər daha baha olur. Ən bahalı evlər Bilgəh, Buzovna, Şüvəlan, Mərdəkan və Novxanıdadır... Bəzi bağ evlərinin həyətində hovuzla yanaşı, tennis kortu, mini futbol və basketbol meydançası, ev kinoteatrı olur, hər bir şəraitlə təchiz olunur, bu evlərin qiyməti, sözsüz ki, daha yüksək olur".

Əmlak ekspertləri isə bildirirlər ki, artıq neçə ildir ki, insanlar bağ evlərinə külli miqdarda pul sərf edib almaqdansa, onları kirayə götürməyi üstün tuturlar. Görünür, elə bu da həmin evlərin kirayə qiymətlərində birdən-birə kəskin bahalaşmanı şərtləndirib. Ancaq əksər hallarda həmin qiymətlərdəki artımla vətəndaşların gəlirləri arasındakı kəskin uçurum diqqətdən qaçmır və absurd mənzərənin yaranmasına gətirib çıxarır.

Müşahidələr göstərir ki, bağ evlərinin qiymətində ilbəil ciddi artımın olması artıq qaçılmaz reallığa çevrilib. Bir müddət əvvəl Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc musavat.com-a bildirmişdi ki, qiymətlər hər il əvvəlki dövrlə müqayisədə orta hesabla 10-15 faiz, bəzi hallarda isə 20 faizədək artır. Onun sözlərinə görə, əsas tələbat olan ərazilər isə Mərdəkan, Nardaran, Novxanı, Bilgəh, Pirşağı və Şüvəlandır. Bu ərazilər həm havasına, həm də istirahət üçün əlverişli şəraitinə görə digər məkanlardan daha çox seçilir: "Hazırda həmin ərazilərdə bağ evləri artıq ciddi biznes sahəsinə çevrilib... Hazırda yay mövsümü üçün təqdim olunan bağ evlərinin kirayə qiymətləri təxminən 4 min manatdan başlayaraq 10 min manata qədər dəyişir. Ötən il isə bu rəqəmlər əsasən 3-8 min manat aralığında idi. Göründüyü kimi, bazarda təxminən 20 faizə qədər qiymət artımı müşahidə olunur və bu prosesin yay aylarının sonuna qədər davam edəcəyi gözlənilir".

Bəzi ekspertlər, üstəlik, sadə vətəndaşlar hər il qiymət artımını elə də təəccüblü qarşılamırlar, lakin həm azı 20 faizlik bahalaşmanı, həm də ümumilikdə mövcud qiymətləri anormal sayırlar. Elə ona görə də son 2-3 ildə bağ evi kirayələyənlərin sayında azalma olduğunu deyənlər var. Bu il də Şüvəlanda, Nardaranda, Pirşağıda bağ evlərinin bir çoxunun boş qaldığına dair məlumatlar gəlir...

***Toğrul Əliyev***



25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 12



**5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# "STEAM" Layihəsi: Gələcəyin təhsilinə açılan qapı

## Gülnar Xanəliyeva Nəsirova: "İlk tədris ilində cəmi 42 məktəblə başlanılan layihə hazırda ölkə üzrə 400-dən çox ümumi təhsil müəssisəsini əhatə edir"

***Bu günlərdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirildi.***

Elm və təhsil naziri Emin Əmrullayev Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında bildirdi ki, Azərbaycan təhsil sistemində növbəti mərhələ olaraq tədrisin rəqəmsallaşdırılması planlaşdırılır.

Nazir ölkədə təhsilin rəqəmsal transformasiyası istiqamətində görülən işlər və gələcək hədəflər barədə çıxış edib. O bildirib ki, təhsil müəssisələrinin vahid internet şəbəkəsinə qoşulması, "Rəqəmsal məktəb" layihəsinin həyata keçirilməsi, təhsil pillələri üzrə məlumatların rəqəmsallaşdırılması və təhsil sənədlərinin elektronlaşdırılması üzrə işlər davam etdirilir.

Növbəti mərhələdə isə tədris prosesinin tam rəqəmsal mühitə keçirilməsi nəzərdə tutulur.

Emin Əmrullayev həmçinin şagirdlərin rəqəmsal bacarıqlarının artırılması istiqamətində həyata keçirilən "Rəqəmsal bacarıqlar" və "STEAM Azərbaycan" layihələrini qeyd edib. O, bu istiqamətdə insan kapitalının inkişafının prioritet olaraq qaldığını vurğulayıb.

"Unikal" qəzeti bu layihə çərçivəsində hansı işlərin görüldüyünü araşdırıb.

"STEAM Azərbaycan" layihəsinin İctimaiyyətlə əlaqələr və kommunikasiya bölməsinin rəhbəri Gülnar Xanəliyeva Nəsirova sorğumuza cavabda bildirib ki,

Azərbaycanda gənc nəslin XXI əsr bacarıqlarına yiyələnməsi və tədrisin müasir çağırışlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən "STEAM Azərbaycan" layihəsi öz miqyasını sürətlə genişləndirir.

"İlk günlərdən etibarən təhsil ekosistemində əsl inqilaba səbəb olan bu layihə artıq gələcəyin mühəndislərini, proqramçılarını və ixtiraçılarını yetişdirən milli platformaya çevrilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və Elm və Təhsil Nazirliyinin dəstəyi ilə 2019-2020-ci tədris ilindən start götürən



layihə qısa zaman kəsiyində böyük bir inkişaf yolu keçib. İlk tədris ilində cəmi 42 məktəblə başlanılan layihə hazırda ölkə üzrə 400-dən çox ümumi təhsil müəssisəsini əhatə edir. Layihənin ən qürurverici rəqəmlərindən biri isə onun artıq 300 000-dən çox şagirdi və 5 000-dən çox müəllimi öz ətrafında birləşdirməsidir.

"STEAM Azərbaycan" layihəsinin ən mühüm hədəflərindən biri qabaqcıl texnoloji təhsilin coğrafiyasını genişləndirmək və bölgələrdəki şagirdlərin də bu innovasiyalara əlçatanlığını təmin etməkdir. Bu məqsədlə illər ərzində ölkə üzrə 21 STEAM Mərkəzi yaradılıb. Hazırda Gəncə, Sumqayıt, Quba, İsmayıllı, Ağdaş, Bərdə, Tovuz, Şəmkir, Zaqatala, Qax, Sabirabad, Şirvan, Lənkəran, Mingəçevir kimi şəhər və rayonlarımızda müasir mərkəzlər gənclərin xidmətindədir.

Xüsusilə qeyd edilməlidir ki, layihə işğaldan azad olunmuş ərazilərimizdə də uğurla icra edilir. Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin nəzdində qurulan müasir STEAM mərkəzi bölgənin təhsil həyatına yeni nəfəs gətirərək böyük rəmzi və strateji əhəmiyyət daşıyır.

Həmçinin Bakı şəhərində layihə çərçivəsində qurulan STEAM İnnovasiya Mərkəzi fəaliyyət göstərir. Muzey tipli fəaliyyət göstərən və hər gün ziyarətçiləri qəbul edən mərkəz elmi-texnoloji yenilikləri təcrübədən keçirmək üçün müasir bir məkandır. Burada aviasiya, kosmos, peyk texnologiyaları laboratoriyaları, elmi eksponatların sərgiləndiyi zonalar, "Newton" otaqları və xüsusi ideya laboratoriyaları var. Şagirdlər mərkəzdə dərslərdə öyrəndikləri nəzəri biliklərin təcrübədən keçirirlər".

Qurum sözçüsü bildirib ki, ilkin mərhələdə STEAM dərsləri əsasən 6-cı siniflərdən etibarən tətbiq olunmağa başlasa da, tədris proqramının optimallaşdırılması və genişləndirilməsi nəticəsində hazırda layihə 3-9-cu sinif şagirdlərini də əhatə edir. Bu yanaşma uşaqların texnologiya ilə daha erkən yaşlarda tanış olmasına, onlarda fundamental mühəndislik, proqramlaşdırma və məntiqi təfəkkürün vaxtında formalaşmasına güclü zəmin yaradır.

Həmçinin Elm və Təhsil Nazirliyi tərəfindən layihəyə cəlb edilmiş bütün məktəblər zəruri texnoloji avadanlıqlar və xüsusi inventarlarla tam təmin edilib. Şagirdlərin ixtiyarına verilən xüsusi STEAM otaqları 3D printerlər, CNC lazer kəsmə aparatları, robototexnika dəstləri, mikrokontrollerlər, elektronika komponentləri və ən müasir İKT cihazları ilə təchiz olunub. Peyk və dron texnologiyaları, eləcə də daha mürəkkəb layihələr üzərində çalışmaq istəyən gənclər isə regional mərkəzlərin imkanlarından geniş şəkildə yararlanırlar.

Tədrisin effektivliyini təmin edən əsas faktorlardan biri də müəllimlərdir. Gülnar Xanəliyeva Nəsirova deyir ki, fənlərarası yanaşmanı (Elm, Texnologiya, Mühəndislik, İncəsənət, Riyaziyyat) özündə birləşdirən bu yenilikçi konsepsiya ilkin mərhələdə kadr çağırışları yaratsa da, mütəmadi təşkil edilən intensiv ixtisasartırma təlimləri sayəsində bu məsələ sistemli şəkildə həllini tapıb.

STEAM dərslərinin fəlsəfəsi biliklərin sadəcə nəzəri öyrənilməsinə deyil, onların praktik tətbiqinə və real həyat problemlərinin həllinə yönəlib.

"Bu dərslərdə uşaqlar erkən yaşdan proqramlaşdırıla bilən sistemlər və birplatalı mikrokontrollerlərlə işləməyi, robotların qurulması və mexaniki sistemlərin proqramlaşdırılmasını, 3D dizaynların yığılması və onların 3D printer və CNC aparatlarında reallığa çevrilməsini, dron və peyk texnologiyalarının sirlərini, biotexnologiya, nanotexnologiya və alternativ (yaşıl) enerji mənbələrinin prinsiplərini öyrənirlər. Ən əsası isə şagirdlərə öz innovativ ideyalarını real layihələrə və gələcəyin startaplarına çevirmək bacarığı aşılanır. "STEAM Azərbaycan" layihəsi yeniyetmə və gənclərə təkcə texnoloji biliklər vermir. O, tənqidi düşüncə, yaradıcılıq, komanda işi və effektiv ünsiyyət kimi XXI əsrin ən vacib kompetensiyalarını formalaşdıraraq Azərbaycan gəncliyini rəqəmsal dünyanın aparıcı qüvvələrindən birinə çevirməyə xidmət edir", - deyə bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Mənzillərin qarşısındakı kamera qanunidirmi? - Ali Məhkəmədən cavab

***Azərbaycan Respublikasının Ali Məhkəməsi çoxmənzilli yaşayış binalarında müşahidə kameralarının quraşdırılması ilə bağlı mühüm hüquqi mövqe formalaşdırıb.***

"Unikal" xəbər verir ki, məhkəmənin baxdığı işdə tərəflər yaşayış binasının eyni girişində eyni mərtəbəsində yaşayan qonşular olub. Mübahisə cavabdehin ümumi dəhlizdə və öz mənzilinin giriş hissəsində kameralar quraşdırmasının qonşunun şəxsi həyatın toxunulmazlığı hüququnu pozub-pozmadığı ilə bağlı olmuşdur.

Ali Məhkəmə qeyd edib ki, hər bir şəxs öz mənzilinin və əmlakının təhlükəsizliyini təmin etmək üçün müşahidə kamerası quraşdıra bilər. Ancaq bu hüquq həyata keçirilməsi digər şəxslərin şəxsi həyatına qanunsuz müdaxilə təşkil etməməlidir.

Qərarda vurğulanır ki, şəxsi həyat anlayışı yalnız mənzilin daxilində baş verən hadisələrlə məhdudlaşmır. Şəxsin mənzilə nə vaxt daxil olub-çıxması, onu kimlərin ziyarət etməsi, gündəlik həyat ritmi, eləcə də təsvirinin davamlı şəkildə qeydə alınması onun şəxsi həyatına aid məlumatlardır. Buna görə də bu məlumatların sistemli şəkildə toplanmasına imkan verən müşahidə şəxsi həyata müdaxilə hesab oluna bilər.

Ali Məhkəmənin hüquqi mövqeyinə görə, çoxmənzilli yaşayış binasının ümumi istifadədə olan dəhlizini və ya digər mənzillərin giriş hissələrini əhatə edən müşahidə kamerası yalnız həmin dəhlizə çıxan qonşuların razılığı olduqda quraşdırıla bilər.

Əgər belə razılıq yoxdursa, təhlükəsizlik məqsədilə quraşdırılan kameranın görüntü bucağı yalnız onu quraşdıran şəxsin mənzilinin giriş hissəsini əhatə etməlidir. Kamera dəhlizi, liftin qarşısını, digər qonşuların mənzillərinin girişini, onların mənzilə giriş-çıxışını və ya təsvirini davamlı şəkildə qeydə almamalıdır. Kameranın görüntü dairəsi zəruri həddi aşaraq qonşuların mənzillərini və onların hərəkətlərini əhatə edərsə, bu artıq Konstitusiya ilə qorunan şəxsi həyata müdaxilə sayılır.

Konkret iş üzrə Ali Məhkəmə yalnız mənzilin qapısı üzərində quraşdırılmış kameranın görüntü bucağının həmin mənzilin giriş hissəsi ilə məhdudlaşdırılmasını, ümumi dəhlizi və qonşuların mənzillərini əhatə edən digər kameranın isə sökülməsini qərara alıb. Məhkəmə bu yanaşmanı tərəflərin hüquqları arasında ədalətli balansın təmin edilməsinə yönəlmiş, zəruri və proporsional tədbir hesab edib.

Qərarda daha bir mühüm məqama da aydınlıq gətirilib. Məhkəmə hesab edib ki, şəxsin iradəsi xaricində uzun müddət müşahidə olunması və təsvirinin müntəzəm qeydə alınması onda daimi izlənildiyi hissini yarada, psixoloji narahatlıq və mənəvi iztirablara səbəb ola bilər. Belə hallarda şəxsi həyata qanunsuz müdaxilə sübuta yetirilərsə, mənəvi zərərin ayrıca sübut edilməsinə ehtiyac yoxdur. Hüquqazidd müdaxilənin özü mənəvi zərərin mövcudluğu barədə prezumpsiya yaradır və əksini iddia edən şəxs bunu sübut etməlidir.

Bu hüquqi mövqeyə əsaslanaraq Ali Məhkəmə qonşunun şəxsi həyat hüququnun pozulduğunu qəbul etməklə yanaşı, onun xeyrinə mənəvi zərər əvəzinin tutulmasını da qanuni hesab edib.

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 13






## Növbəti "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq

***11-12 iyul tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda növbəti "Kənddən Şəhərə" həftəsonu yarmarkası baş tutacaq.***

"Unikal" xəbər verir ki, yarmarkanın məqsədi yerli fermerlərə dəstək göstərmək, onların məhsullarının satış imkanlarını artırmaq və şəhər sakinlərini sağlam, təbii kənd məhsulları ilə təmin etməkdir.

Tədbirdə 20-ə yaxın regiondan 40-a yaxın fermer iştirak edəcək. Onlar 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsulunu birbaşa satışa çıxaracaqlar.

Satışa təqdim olunan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan vətəndaşlar ərazidə fəaliyyət göstərəcək Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsulları analiz etdirə bilərlər.

Yarmarka 2 gün müddətində, saat 09:00-19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 5 ünvanında ("Gənclik" metro stansiyasının yaxınlığı) fəaliyyət göstərəcək.

Qeyd edək ki, yarmarkaya qoşulan fermerlər piştaxta, tərəzi, soyducu, selofan paket digər zəruri avadanlıqlarla ödənişsiz şəkildə təmin olunurlar.

## Mərkəzi Bank yeni agentlər seçdi

***Azərbaycan Mərkəzi Bankı (AMB) "TuranBank" və "Bank of Baku" ASC-ləri yubiley və xatirə pul nişanlarının satış agenti kimi seçib.***

"Unikal" bu barədə AMB-yə istinadən xəbər verir.

Məlumata görə, bununla da, yubiley və xatirə pul nişanlarının satışının əlçatanlığı artırılıb. Belə ki, sabahdan vətəndaşlar "Yubiley və xatirə pul nişanlarının onlayn satış sistemi" (https://coin.e-cbar.az) vasitəsilə etdikləri sifarişlər üzrə pul nişanlarını təhvil almaq üçün artıq "TuranBank" və "Bank of Baku"nu də seçə biləcəklər. Həmin banklar həm də AMB-nin investisiya pul nişanlarının satış agentləridir.

Vətəndaşlar tədavüldə olan yubiley və xatirə pul nişanları barədə məlumatları AMB-nin internet səhifəsinin "Milli pul nişanları" (https://www.cbar.az/money-marks/coins?category=2) bölməsindən əldə edə, onlayn satış sistemi vasitəsilə sifarişlərini elektron qaydada verə bilərlər.

Qızıl, gümüş və kupronikel yubiley və xatirə pul nişanlarının tədavülə buraxılmasının əsas məqsədi ölkəmizin ictimai-siyasi həyatında baş vermiş mühüm tarixi hadisələrin əks etdirilməsi, milli mədəni irsin və incəsənətin beynəlxalq ictimaiyyətə tanıdılması, Azərbaycanın flora və faunasının təbliği, habelə görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsidir.

### ELAN

Abşeron Rayon İcra Hakimiyyəti tərəfindən Qafarova Əzizxanım Əvəz qızına verilmiş 13-iyun 2009-cu il tarixili 1095-saylı order itdiyi üçün etibarsız sayılsın.

# Limfedemaya qarşı nadir mikrocərrahi əməliyyat icra edildi - Azərbaycanda ilk

***Azərbaycanda ilk dəfə süd vəzi xərçəngindən sonra yaranan limfedemaya qarşı nadir mikrocərrahi əməliyyat uğurla icra edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb. Bildirilib ki, əməliyyat nazirliyin Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə klinikasında baş tutub.

Bu müasir rekonstruktiv mikrocərrahiyyənin ən mürəkkəb əməliyyatlarından biri hesab olunan üsul, xroniki limfedemanın, xüsusilə süd vəzi xərçəngi səbəbindən aparılan əməliyyat və limfa düyünlərinin çıxarılmasından sonra yaranan yuxarı ətraf limfedemasının müalicəsində tətbiq edilir.

Əməliyyat zamanı xəstənin kürəyinin yuxarı hissəsində yerləşən paraskapulyar nahiyədən qan damarları ilə birlikdə sağlam limfa düyünləri götürülərək qoltuqaltı nahiyəyə köçürülüb. Mikrocərrahi texnologiyalar vasitəsilə diametri 1 millimetrdən də kiçik olan damarlar xüsusi mikroskop altında birləşdirilib və köçürülmüş toxumanın qan təchizatı tam bərpa edilib. Paraskapulyar donor sahə dünyada ən təhlükəsiz donor nahiyələrindən biri hesab olunur. Bu sahədən limfa düyünlərinin götürülməsi aşağı ətrafda limfedema yaranması riskini minimuma endirdiyi üçün son illərdə beynəlxalq praktikada geniş tətbiq edilir.



Vaskülarizə olunmuş limfa düyünü transferinin məqsədi limfa dövranını bərpa etmək, yeni limfa damarlarının əmələ gəlməsini stimullaşdırmaq və zədələnmiş nahiyədə limfa drenajını yaxşılaşdırmaqdır. Bu metod sayəsində xəstələrdə qolun şişkinliyinin azalması, təkrarlayan sellülit epizodlarının sayının əhəmiyyətli dərəcədə enməsi, kompressiya vasitələrindən asılılığın azalması və həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşması mümkündür.

Beynəlxalq elmi araşdırmalara əsasən, uyğun seçilmiş xəstələrdə əməliyyatdan sonra ətraf həcminin 20-60 faiz azalması müşahidə olunur, eyni zamanda infeksiya epizodlarının tezliyi əhəmiyyətli dərəcədə aşağı düşür.

Bu əməliyyat xroniki limfedemanın II-III mərhələsində olan, konservativ müalicədən kifayət qədər fayda görməyən, təkrarlayan dəri infeksiyaları keçirən və limfa damarlarının ciddi zədələnməsi səbəbindən digər mikrocərrahi üsulların effektiv olmadığı xəstələr üçün nəzərdə tutulur.

Azərbaycanda ilk dəfə icra olunan bu yüksək texnologiyalı mikrocərrahi müdaxilə ölkədə rekonstruktiv cərrahiyyənin inkişafında mühüm mərhələ olmaqla yanaşı, limfedemadan əziyyət çəkən xəstələrin müasir və effektiv müalicə üsullarına çıxış imkanlarını genişləndirir.

# Çəyirtkəkimilərə qarşı mübarizə tədbirləri aparılır

***Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya (Zərərsizləşdirmə) Mərkəzi tərəfindən çəyirtkələrin yayılmasının qarşısının alınması məqsədilə zərərvericilərə qarşı mübarizə tədbirləri ardıcıl şəkildə davam etdirilir.***

"Unikal" xəbər verir ki, son günlər Abşeron yarımadasında, xüsusilə dənizkənarı ərazilərdə çəyirtkələrin kütləvi şəkildə müşahidə olunması ilə əlaqədar operativ monitorinqlər aparılıb və yayıldığı sahələrdə kimyəvi mübarizə tədbirləri həyata keçirilib. Ümumilikdə, cari ilin may-iyul ayları ərzində respublikanın müxtəlif ərazilərində çəyirtkəkimilərin müşahidə olunduğu 6819 ha ərazidə kimyəvi mübarizə tədbirləri icra olunub.

Mübarizə tədbirlərinin həyata keçirildiyi ərazilərdə mütəxəssislər tərəfindən mütəmadi monitorinqlər aparılır, fitosanitar vəziyyət qiymətləndirilir və aşkar olunmuş ocaqlarda xüsusi texnika və müvafiq preparatlardan istifadə edilməklə kimyəvi mübarizə işləri həyata keçirilir. Bu tədbirlər çəyirtkələrin yayılmasının qarşısının alınmasına, kənd təsərrüfatı bitkilərinin, otlaq sahələrinin və təbii bitki örtüyünün mümkün zərərlərdən qorunmasına, həmçinin fitosanitar sabitliyin təmin edilməsinə xidmət edir.

Aqrar Xidmətlər Agentliyi tərəfindən çəyirtkə növlərinin müşahidə olunduğu digər ərazilərdə də vəziyyət daim nəzarətdə saxlanılır. Risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq zəruri hallarda operativ müdaxilə edilir, əlavə mübarizə tədbirləri görülür və zərərvericilərin yayılmasının qarşısının alınması istiqamətində işlər ardıcıl şəkildə davam etdirilir.

Qeyd edək ki, son illərdə çəyirtkələrin qonşu ölkələrdə daxil olmaqla daha geniş ərazilərdə yayılması qlobal və regional iqlim dəyişiklikləri ilə əlaqələndirilir. Havanın temperaturunun yüksəlməsi və mövsümi hava şəraitində baş verən dəyişikliklər zərərvericilərin çoxalması və yayılması üçün əlverişli şərait yaradır. Bu da onların yayılma arealının genişlənməsinə və yeni ərazilərdə müşahidə olunma hallarının artmasına səbəb olur.




# Turizm sahəsində yeni subsidiya mexanizmləri tətbiq ediləcək

***Azərbaycanda turizmin inkişafı üzrə hazırlanmış yeni dövlət proqramında infrastruktur layihələrinə subsidiya dəstəyi məsələsi də yer alıb.***

"Unikal" xəbər verir ki, bunu Dövlət Turizm Agentliyi yanında Azərbaycan Turizm Bürosunun İdarə Heyətinin sədri Florian Zenqstşmid Bakıda keçirilən "İqtisadi artımı və diversifikasiyanı təmin etmək üçün Azərbaycanın turizm potensialının açılması" adlı tədbirdə bildirib.

Onun sözlərinə görə, proqram hazırda hökumət daxilində razılaşdırılmasının yekun mərhələsindədir və turizmin inkişafına mane olan əsas problemlərin həllini nəzərdə tutur:



"Sənəddə nəqliyyat əlçatanlığının artırılması, turizm məkanlarına "son kilometr" bağlantısının yaxşılaşdırılması, eləcə də turizm infrastrukturunun inkişafı üçün subsidiya mexanizmlərinin tətbiqi nəzərdə tutulur. Turizmin inkişafı təkcə bir qurumun fəaliyyəti ilə məhdudlaşmır və yol, elektrik, su təchizatı, rabitə, eləcə də digər infrastruktur layihələri üzrə dövlət qurumları ilə özəl sektorun koordinasiyalı fəaliyyəti vacibdir. Yeni dövlət proqramının əsas məqsədi turizm sektorunun inkişafı üçün bütün aidiyyəti tərəflərin fəaliyyətini vahid yanaşma çərçivəsində əlaqələndirməkdir".

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 14



# Vətən uğrunda can qoyan Elyar Məmmədov



***44 günlük haqq savaşımızda yağıya qan qusdurub 30 yaşında şəhidlik zirvəsinə ucalan Elyar Elbəyi oğlu Məmmədov indi təkcə bir ailənin yox, bütöv bir xalqın qürur yerinə, iftixar mənbəyinə çevrilib.***

Biləsuvarın Ağalıkənd kəndində boya-başa çatan bu Vətən sevdalısının şərəfli ölümü əsl qəhrəmanlıq məktəbi kimi tarixə yazılıb. Elyar millətin kimliyini, mənliyini bir daha dünyaya sübut etmək, eləcə də Azərbaycanın parlaq gələcəyi naminə müharibə meydanında yağıya qarşı son damla qanınadək mərdliklə döyüşüb. Misilsiz fədakarlığa görə milyonların ürəyinə köç etməklə bərabər, həm də dövlət tərəfindən ölümündən sonra "Vətən uğrunda", Füzulinin, Cəbrayılın azadlığına görə medallarına layiq görülüb. Onun mənalı həyat yoluna nəzər salanda Vətən sevgisinin hər şeydən uca olduğuna tam inanırsan. Elyar cismən özü işıqlı dünyadan getsə də, adı canından artıq sevdiyi Azərbaycanla qoşa çəkilir.

Məktəbi yüksək səviyyədə bitirən Elyar yurduna dadanmış yağıdan qisas almaq üçün hər şeyi kənara qoyub Vətənə əsgər olub, övladlıq borcunu verməyi ən müqəddəs iş sayıb. Odur ki, ordu sıralarına gedib, cəbhə bölgəsində əyninə hərbi forma geyinib. Və xidmət etdiyi hərbi hissədə bildirib ki, mən bura erməni dığalarının burnunu əzməyə gəlmişəm. Arzum da Qarabağımızı azad edib evə qələbə ilə dönməkdir.

Bəli, Elyar nümunəvi xidməti ilə əsgərlərin, zabitlərin sevimlisinə çevrilib. Onun yüksək mədəniyyətinə, əxlaqına, qeyrətinə, mərdliyinə, bacarığına, fəal vətəndaşlıq mövqeyinə heyran qalıblar. Komandirlərin verdiyi bütün tapşırıqları qüsursuz, vaxtında yerinə yetirib. Vətən torpaqlarını göz bəbəyi kimi qorumaqla bərabər, təlimlərdə fəallıq göstərib, silahların sirlərinə dərindən yiyələnib və döyüş meydanında yağıya qalib gəlməkdən ötrü daim təcrübəsini, səriştəsini artırıb. Xidməti zamanı ən çox güvənilən, inanılan əsgər olaraq ad qazanıb. Həmçinin əsgər Elyar müqəddəs yurd yerimiz Qarabağın azadlığı naminə birbaşa səngərə, erməni dığalarına qarşı döyüşə can atıb. Dedikləri də belə olub: "Əgər müharibə başlansa, ön sırada mən gedəcəyəm və son qarış Vətən torpağının azad olunacağı günədək erməni dığalarına qarşı döyüşəcəyəm. İnanıram ki, düşmən heç vaxt qeyrətli oğulların qarşısında tab gətirə bilməz. Mütləq qələbə bizim olacaq".

Əsgərlikdən sonra Elyar Məmmədov bir müddət el-obada yaxşı işləri, xeyirxah əməlləri ilə dərin hörmət, nüfuz qazanıb. Onun gördükləri, etdikləri çoxu üçün sevinc olub. Xalqına fayda vermək, insanlara təmənnasız xidmət etmək onun həyat amalına dönüb. Həmçinin Qarabağın işğalı da Elyarı həmişə narahat edib. Ürəyində, qəlbində dolaşan vətənpərvərlik hissi onu cəbhə bölgəsinə çəkib aparıb. Məhz buna görə də 2020-ci ilin sentyabrın 27-də erməni işğalçılarının hücumları nəticəsində alovlanan müharibəyə könüllü qatılıb, Füzulinin, Cəbrayılın uğrunda gedən döyüşlərdə odlardan, alovlardan keçərək misilsiz şücaət göstərib. Neçə-neçə ağır qanlı savaşda ermənilərı ciddi itkilərə məruz qoyub. 27 oktyabra kimi həmişə öndə olmaqla qəsbkarlara qarşı cəsarətlə vuruşub. Qana susamış düşməni öz qanında boğmaqla istədiyi qisasını onlardan ala bilib. Çox təəssüflər olsun ki, Biləsuvar elinin igid, qorxmaz, qeyrətli oğlu Elyar Məmmədov növbəti döyüşlərdə düşmən atəşinin hədəfinə tuş gəlib. Müdafiəsinə atıldığı Qarabağ torpaqları uğrunda son nəfəsinədək vuruşaraq şəhid olub. Bununla da Vətənə olan ilahi sevgisini torpağa axıtdığı qızıl qanı ilə möhürləyib.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Astarada "2026-cı ilin məhsulu üçün kənd təsərrüfatı bitkiləri əkinlərinin qəti uçotunun yekunları haqqında" statistika




***Rayonda yazlıq bitkilərin əkini başa çatmışdır. Cari ilin iyun ayının 20-nə 3525,1 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır.Cari ilin yazında 550,1 hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalısız), 161,7 hektar sahədə dən üçün qarğıdalı, 815,5 hektar sahədə kartof,1602,1 hektar sahədə tərəvəz, 298,1 hektar sahədə bostan bitkiləri və 97,6 hektar sahədə yem bitkilərinin səpini aparılmışdır.***

Hesabat məlumatlarına əsasən 2026-cı ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil edilməklə, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi 4743,8 hektar olmuş və keçən illə müqayisədə 587,6 hektar və yaxud 11,0 faiz azalmışdır.

Rayon üzrə əkin sahəsinin 782,9 hektarını və yaxud 16,5 faizini dənli və dənli paxlalı bitkilərin, 2715,7 hektarını (57,2 faiz) kartof, bostan və tərəvəz bitkilərinin, 1245,2 hektarını (26,3 faiz) yemlik bitkilərin əkin sahələri təşkil etmişdir.

Dənli və dənli paxlalı bitkilərin 32,0 hektarını (4,1 faiz) buğda, 42,4 hektarını (5,4 faiz) arpa, 253,6 hektarını (32,4 faiz) çəltik, 161,7 hektarını (20,7 faiz) dən üçün qarğıdalı,293,0 hektarını (37,4 faiz) paxlalı bitkilərin əkin sahələri təşkil etmişdir.

Cari ildə dənli və dənli paxlalı bitkilərin əkin sahəsi əvvəlki ilə nisbətən 163,7 hektar və yaxud 17,3 faiz azalmışdır. 2026-cı ilin məhsulu üçün 2025-ci ilin payızında 32,0 hektar sahədə buğda, 39,1 hektar sahədə arpa, 2026-cı ilin yazında isə 3,3 hektar sahədə arpa əkilmişdir.

2026-cı ilin yazında 253,6 hektar sahədə çəltik əkini aparılmışdır.

Ümumi əkin sahəsinin 2715,7 hektarı (57,2 faiz) kartof, tərəvəz və bostan bitkiləri əkinlərinin payına düşmüş və keçən ilə nisbətən 11,2 faiz azalmışdır. Bunun 815,5 hektarı (30,0 faiz) kartof, 1602,1 hektarı (59,0 faiz) tərəvəz, 298,1 hektarı (11,0 faiz) isə bostan bitkilərinin əkin sahələridir.

Ümumi əkin sahəsinin 1245,2 hektarı və ya 26,3 faizi yem bitkilərinin payına düşmüşdür. Yemlik bitkilərin 97,6 hektarını (7,8 faiz) cari ilin çoxillik otları, 1147,6 hektarını (92,2 faizini) keçən illərin çoxillik otlarının əkin sahəsi təşkil etmişdir.

Əhali təsərrüfatları üzrə 585,7 hektar sahədə dənli bitkilər (qarğıdalısız), 161,7 hektar sahədə qarğıdalı, 813,5 hektar sahədə kartof, 298,1 hektar sahədə bostan bitkiləri, 1602,1 hektar sahədə tərəvəz və 1148,2 hektar sahədə yem bitkiləri əkilmişdir.

Kənd təsərrüfatı müəssisələri üzrə 2026-cı ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil edilməklə, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi 134,5 hektar olmuşdur.

***Astara Rayon Statistika İdarəsi***




# AZINCLOUD ilə biznesinizi bulud mühitinə köçürün!

***"AzInTelecom" MMC-nin fərdi "bulud" xidməti olan AZINCLOUD bizneslərə lokal serverlər üzərindən sürətli və təhlükəsiz hostinq xidmətləri təqdim edir.***

"Unikal" xəbər verir ki, rəqəmsallaşma dövründə veb-saytların və mobil tətbiqlərin kəsintisiz və təhlükəsiz işləməsi biznesin inkişafı üçün strateji rol oynayır. Məlumatların serverlərdə saxlanılması xidməti olan hostinq həlləri isə müasir kibertəhlükələr fonunda informasiyaların qorunması və effektiv idarəsi üçün əhəmiyyətlidir. Bu baxımdan hədəf auditoriyaya yaxın yerli serverlərin seçilməsi ən doğru texniki addım hesab olunur.

AZINCLOUD platformasının bizneslərə ölkə daxilində yerləşən serverlər vasitəsilə hostinq imkanları təklif etməsi məlumat ötürülməsini sürətləndirərək şəbəkə gecikmələrini minimuma endirir. "İstifadə etdiyin qədər ödə" modeli xüsusilə kiçik və orta sahibkarlar üçün xərcləri optimallaşdıraraq sərfəli imkanlar yaradır. Ana dilində interfeys, milli valyuta ilə ödəniş və əməliyyatların asanlıqla aparılma imkanları isə AZINCLOUD-u bizneslərin etibarlı rəqəmsal tərəfdaşına çevirir.

Qeyd edək ki, Azərbaycanın ilk ictimai bulud platforması olan "AZINCLOUD" AZCON Holding şirkətlərindən olan "AzInTelecom" MMC tərəfindən yaradılıb. Əlavə məlumat üçün azincloud.az saytını ziyarət edə bilərsiniz.

# Dərmanları baha satan "Zeytun" aptekləri cərimələndi

***Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi "Zeytun Pharmaceuticals" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 221.3. maddəsinə əsasən protokol tərtib edib.***




"Unikal" xəbər verir ki, şirkət "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 4.7. maddəsini pozub.

Belə ki, "Zeytun Pharmaceuticals" MMC dərman vasitəsini Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilmiş pərakəndə satış qiymətinin yuxarı həddindən baha satıb.

Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 221.3. maddəsinə əsasən "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatından keçmiş dərman vasitələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tənzimlənən qiymətlərdən fərqli qiymətlərlə satışına görə vəzifəli şəxslər 1 000 - 1 500 manat, hüquqi şəxslər 3 - 5 min manat məbləğdə cərimə edilir.

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 15



# "Hələ tam qərar verməmişəm" - Tramp F-35 məsələsində geri addım atdı



***Ankarada keçirilən NATO Zirvə Toplantısı zamanı ABŞ Prezidenti Donald Tramp diqqət çəkən açıqlamalar verərək Türkiyənin tezliklə F-35 qırıcı təyyarələri alacağını bildirib.***

"Unikal" xəbər verir ki, ABŞ lideri Türkiyəni tərk etməzdən əvvəl verdiyi son açıqlamada F-35 məsələsində geri addım atıb. Belə ki, o, bu barədə hələ tam qərar vermədiyini deyib.

Tramp öncə Türkiyənin S-400 raketlərini alması səbəbindən tətbiq edilən CAATSA sanksiyalarının ləğv ediləcəyini açıqladı.

O, həmçinin Türkiyəyə F-35 qırıcı təyyarələri verməyi düşündüklərini və tezliklə onları alacaqlarını bildirib. Çərşənbə günü o, Türkiyə Silahlı Qüvvələrini tərifləyərək deyib: "Onlar tezliklə F-35-ləri alacaqlar".

Lakin ABŞ lideri Türkiyəni tərk etməzdən əvvəl bildirib ki, hələ F-35-lərin çatdırılması ilə bağlı yekun qərar verməyib.

Trampın açıqlamaları Türkiyənin uzun müddətdir ki, yenidən qoşulmaq istədiyi F-35 proqramı üçün müsbət bir irəliləyiş kimi qəbul edilmişdi. Türkiyənin əvvəllər proqram çərçivəsində milyardlarla dollar ödəniş etməsi də yenidən diqqət mərkəzinə gətirilib.

ABŞ Konqresində məhdudlaşdırıcı qaydalara baxmayaraq, Trampın F-35 tədarükü ilə bağlı tədbir görə biləcəyi gözləntiləri Ankarada nikbin bir atmosfer yaradıb.

Lakin Trampın Türkiyəni tərk etməzdən əvvəl verdiyi son açıqlama bu nikbin atmosferə kölgə salıb.

Tramp Beştəpədə keçirdiyi son mətbuat konfransında F-35-lərlə bağlı suala cavab olaraq deyib: "Bunu edib-etməyəcəyimizə hələ tam qərar verməmişəm".

Onun açıqlaması Türkiyənin F-35 proqramına qayıtması ilə bağlı prosesin hələ yekunlaşmadığını göstərir.

***Ağarza Elçinoğlu***

# "Hörmüz boğazı yalnız Tehranın şərtləri ilə açılacaq"



***İran Parlamentinin sədri Məhəmməd Bağır Qalibaf ABŞ-ni xəbərdar edib və Hörmüz boğazının yalnız Tehranın şərtləri ilə açılacağını bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə sosial media hesabında yazıb.

"Əgər zərbə endirsəniz, sizə cavab zərbəsi endiriləcək. Boş yerə vuruşmayın, yoxsa daha da dərinə batacaqsınız. Hörmüz boğazı yalnız İranın şərtləri ilə açılacaq, Amerika təhdidləri ilə deyil", - deyə o qeyd edib.

Xatırladaq ki, İran Küveyt və Bəhreyndə ABŞ hədəflərinə cavab zərbələri endirib. İran raketləri həmçinin İordaniyadakı Əl-Əzraq hava bazasını da hədəf alıb.

Son iki gecə ərzində ABŞ İrana qarşı hücumları bərpa edib. Tehran bu hücumların cavabsız qalmayacağına söz verib.

***Gülayə Mecid***

# Ukrayna PUA-sı iki rus tankerini vurdu



***Ukrayna Silahlı Qüvvələrinin (UAH) dronları Taqanroq körfəzində yerləşən iki tankerə yenidən hücum edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rostov vilayətinin qubernatoru Yuri Slyusar məlumat verib.

Son məlumata görə, tankerlərin heyəti təxliyə edilib və xəsarət alan yoxdur. Pilotsuz təyyarənin zərbəsi nəticəsində yanğın baş verib; gəmilərdən birində yanğın tamamilə söndürülüb, digərində isə yanğın davam edir.

Slyusarın sözlərinə görə, Rostov vilayətinə edilən hücum zamanı iyirmidən çox dron məhv edilib.

# Ərdoğan NATO tarixində bir ilkə imza atdı

***Türkiyə 7-8 iyul tarixlərində paytaxt Ankarada keçirilən NATO Zirvə Görüşünə 32 üzv ölkənin lideri ev sahibliyi edib.***



"Unikal" diqqətə çatdırır ki, Prezident Rəcəb Tayyib Ərdoğan siyasi karyerası boyunca NATO Liderlərinin Zirvə Toplantısında nə az, nə də çox, düz 14 dəfə iştirak edib

Və bu, onu alyansın ən təcrübəli liderlərindən birinə çevirib.

Baş nazir və Prezident vəzifələrində Türkiyəni təmsil etdiyi bu zirvə görüşləri Türkiyənin xarici siyasətinin və regional təhlükəsizlik strategiyalarının formalaşmasında mühüm rol oynayıb.

Ərdoğanın Baş nazir və Prezident olduğu dövrdə qatıldığı NATO Zirvə Toplantılarının xronoloji siyahısını təqdim edirik:

2004-cü NATO İstanbul Zirvə Görüşü

2005 NATO Brüssel Zirvə Görüşü (Belçika)

2006 NATO Riqa Zirvə Görüşü (Latviya)

2008 NATO Buxarest Zirvə Görüşü (Rumıniya)

2009 Strasburq-Kehl Zirvə Görüşü (Almaniya-Fransa)

2010 Lissabon Zirvə Görüşü (Portuqaliya)

2012 Çikaqo sammiti (ABŞ)

2014 Uesl görüşü (Böyük Britaniya)

2016 Varşava görüşü (Polşa)

2018 Brüssel (Belçika)

2019 London (Böyük Britaniya)

2022 Madrid (İspaniya)

2023 Vilnüs (Litva)

2026 Ankara (Türkiyə)

***Gülayə Mecid***

# Paşinyan Bayramovun açıqlamasına müsbət reaksiya verdi - "İlin sonuna qədər..."

***"Konstitusiyaya düzəlişlərin edilməsi gündəliyi Ermənistan Respublikasının hakim partiyasının seçkiqabağı proqramına daxil edilib, biz mətni ilin sonuna qədər dərc edəcəyik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan brifinqdə deyib. Paşinyan Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Konstitusiya dəyişiklikləri ilə bağlı verdiyi açıqlamasına toxunub: "Biz Ermənistanın daxili həyatı ilə bağlı məsələləri xarici siyasət sahəsində müzakirə etmirik. Konstitusiyaya düzəliş gündəliyi Ermənistan Respublikasının hakim əksəriyyətinin seçkiqabağı proqramına daxil edilib və bu, faktdır. Yəni seçkiqabağı proqramda yeni Konstitusiyanın qəbul edilməsi zərurəti qeyd olunur və 726 min nəfər ona səs verib. İndi son tarix bitib, təkliflər müzakirə olunub, ilin sonuna qədər mətni dərc edəcəyik".



Qeyd edək ki, xarici işlər naziri Ceyhun Bayramov 9 İyul - Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı ilə ilə əlaqədar Fəxri xiyabanı ziyarəti sonrası jurnalistlərə açıqlamasında deyib ki, Ermənistan Konstitusiyasındakı ərazi iddiaları aradan qaldırıldıqdan sonra səhəri günü sülh sazişi imzalana bilər.

***Ağarza Elçinoğlu***

# İran ABŞ-ni müharibə cinayətlərində ittiham etdi

***İran Xarici İşlər Nazirliyi, Amerikanın respublika ərazisinə yeni zərbələrindən sonra ABŞ-ni müharibə cinayətlərində ittiham edib.***



"Unikal" xəbər verir ki, bu barədə İran XİN məlumat yayıb. "ABŞ-nin terrorçu ordusunun müqəddəs Məşhəd şəhərinə gedən dəmir yolu marşrutundakı cənub sahil əyalətlərindəki bir neçə nöqtəyə və şərq əyalətlərindəki iki körpüyə etdiyi və şübhəsiz ki, ağır müharibə cinayəti təşkil edən təcavüzkar hücumlarını ən sərt şəkildə pisləyir", - deyə bəyanatda bildirilir.

Departamentin qeyd etdiyi kimi, "ABŞ-nin son 48 saat ərzində İran İslam Respublikasına qarşı cinayətkar hərəkətləri" ABŞ və İran arasında memorandumun pozulmasıdır və eyni zamanda bbu, beynəlxalq hüququ pozur.

Daha əvvəl ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) Amerika qüvvələrinin hava hücumundan müdafiə sistemləri, raket və pilotsuz təyyarə anbarları və dəniz logistika obyektləri də daxil olmaqla, İranın təxminən 90 hərbi hədəfinə zərbə endirdiyini açıqlamışdı.

***Gülayə Mecid***

# Qazaxıstandan Rusiyaya dron hücumu olub?

***Qazaxıstan Xarici İşlər Nazirliyi ölkənin Rusiya Federasiyasındakı hədəflərə hücum edən dronların buraxılması üçün istifadə edildiyinə dair mediada yayılan məlumatları yalan adlandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan Xarici İşlər Nazirliyi bəyanat yayıb.

Qeyd olunub ki, Qazaxıstan ərazisindən Rusiyadakı hədəflərə hücum edən dronların buraxılması üçün istifadə edilməsi ehtimalı ilə bağlı məlumatlar heç bir faktla təsdiqlənmir. Xarici İşlər Nazirliyi bu cür məlumatları Qazaxıstan və Rusiya arasında ənənəvi dostluq münasibətlərini təhrif etməyə yönəlmiş əsassız iddialar kimi xarakterizə edib.

***Gülayə Mecid***

25_27 IYUl-QARA.qxd 7/9/2026 10:05 PM Page 16



# Azərbaycan UEFA reytinqində neçəncidir?




***Azərbaycan UEFA ölkə reytinqində xal hesabını artırıb.***

"Unikal" xəbər verir ki, bu, Avropa kuboklarının 1-ci təsnifat mərhələsində "Sabah" Çempionlar Liqasında TNS (Uels), "Zirə"nin isə Konfrans Liqasında "Torpedo" (Gürcüstan) üzərindəki qələbəsi sayəsində mümkün olub.

Bu oyunlardan sonra Azərbaycanın cari mövsümdəki əmsalı 0.500-ə yüksəlib.

Hazırda son 5 mövsümün nəticələrinə əsasən Azərbaycanın ümumi əmsalı isə 19.062-dir. Bu göstərici ilə ölkəmiz UEFA ölkə reytinqində 26-cı pillədə qərarlaşıb.

Qeyd edək ki, 25-ci sırada yer alan İsrailin 20,750 əmsalı var. Bu gün keçiriləcək Avroliqanın "Qarabağ" - "Vestri" matçında Ağdam təmsilçisi müsbət nəticə qazansa, bu da ölkəmizin xal ehtiyatının artmasına səbəb olacaq.

Qeyd edək ki, reytinqə əvvəlkitək İngiltərə (101,852 əmsal) başçılıq edir.

# "Qarabağ" "Vestri"ni məğlub etdi

***"Qarabağ" UEFA Avropa Liqasının 2026/2027 mövsümündə ilk oyununu keçirib.***

"Unikal" xəbər verir ki, Qurban Qurbanovun baş məşqçisi olduğu kollektiv turnirin I təsnifat mərhələsində Bakıda İslandiyanın "Vestri" komandasını qəbul edib.

Tofiq Bəhramov adına Respublika stadionundakı qarşı-



laşma Azərbaycan təmsilçisinin qələbəsi ilə yekunlaşıb - 3:0.

30-cu dəqiqədə Zakaria Savo, 45+2-ci dəqiqədə Abdullah Zubir, 86-cı dəqiqədə Renaldo Sefas fərqlənib.

Xatırladaq ki, tərəflər arasında cavab görüşü iyulun 17-də baş tutacaq. Cütün qalibi UEFA Avropa Liqasının II təsnifat mərhələsində "Qlentoran" (Şimali İrlandiya) - RFS (Latviya) duelinin güclüsü ilə qarşılaşacaq.

# "Zirə" - "Torpedo" oyununda 2 yubiley: 500-cü oyun, 550-ci qol

***UEFA Konfrans Liqasının I təsnifat mərhələsinin ilk oyunları çərçivəsində keçirilən "Zirə" - "Torpedo" (Kutaisi, Gürcüstan) matçı Azərbaycan futbolu tarixində iki yubileylə əlamətdar olub.***

"Unikal" Peşəkar Futbol Liqasının rəsmi saytına istinadla xəbər verir ki, Sumqayıtda baş tutan oyun Azərbaycan təmsilçilərinin Avropamiqyaslı klub turnirlərində keçirdiyi ümumilikdə 500-cü qarşılaşma kimi tarixə düşüb.

Təmsilçilərimiz Çempionlar Liqasında 120, Avropa Liqasında (əvvəl UEFA kuboku) 283, Konfrans Liqasında 63, Kuboklar Kubokunda 8, İntertoto Ku-



bokunda 26 görüşə çıxıb. Bu qarşılaşmalardan ikisi nəticəsi ləğv olunduğu, biri baş tutmadığı üçün texniki nəticə ilə yekunlaşıb. Həmin texniki nəticələri nəzərə almaqla 159 qələbə qazanan klublarımız 112 heç-heçə edib və 229 dəfə uduzub.

Qitə kuboklarında debüt 1994/95-ci illər mövsümündə gerçəkləşib. 1994-cü il avqustun 9-da "Turan" Türkiyədə "Fənərbaxça"ya 0:5 hesabı ilə uduzub.

"Zirə"nin futbolçusu Ruan Renatonun "Torpedo" ilə görüşdə vurduğu ilk top Azərbaycan klublarının avrokuboklarda 550-ci qolu olub. Texniki nəticələrin nəzərə alınmadığı top fərqi 552-759-dur.

Azərbaycan komandalarının ilk qolu 1995/96-cı illər mövsümündə qeydə alınıb. UEFA kubokunun 1995-ci il avqustun 22-də keçirilən "Austriya" (Vyana, Avstriya) - "Kəpəz" görüşündə (5:1) Yadigar Süleymanov fərqlənib.

Qeyd edək ki, "Zirə" "Torpedo"ya 3:0 hesabı ilə qalib gəlib.

# Güləşçilərimiz Avropa çempionatını 5 medalla başa vurdular

***Yunan-Roma güləşi üzrə Azərbaycan millisi Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən U-20 Avropa çempionatını 5 medalla başa vurub.***

"Unikal" xəbər verir ki, yığma yarışın 3-cü günündə daha 2 mükafat qazanıb. Ayxan Cavadov (60 kiloqram) rumıniyalı Draqos Draqaya 6:1, Elmin Əliyev (82 kiloqram) isə macarıstanlı Sabolç Sinaya 8:0 hesabı ilə qalib gələrək fəxri kürsünün 3-cü pilləsinə yüksəliblər.

Roman Kərimov (67 kiloqram) təsəlliverici görüşlərdə litvalı Eymantas Andriuska (9:0) və moldovalı Maksim Damaşinə (10:0) heç bir şans tanımayıb. Həmyerlimiz bürünc medal uğrunda qarşılaşmada isə rusiyalı Amir Sovmizə 2:6 hesabı ilə məğlub olaraq 5-ci yerlə kifayətlənib.

Beləliklə, Azərbaycanın yunan-Roma güləşi millisi qitə birinciliyini 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurub. Daha əvvəl Emin Cavadlı (55




kiloqram) qızıl, Cavidan Nehmətovla (77 kiloqram) Orxan Hacıyev (87 kiloqram) isə gümüş mükafata sahib çıxıb.

# Həsən Zeynalov birinci müavin təyin edildi

***"Turan Tovuz" PFK-da yeni təyinat baş tutub.***

"Unikal" xəbər verir ki, Həsən Zeynalov İdarə Heyəti sədrinin birinci müavini təyin edilib.

Qeyd edək ki, Həsən Zeynalov ötən mövsüm ölkə çempionu olan "Turan" Voleybol Klubunun prezidentidir.



# Avarçəkənlərimiz Gürcüstana 12 nəfərlik heyətlə yollanır

***10-12 iyul tarixlərində Gürcüstanın Poti şəhərində akademik avarçəkmə və kanoe üzrə beynəlxalq reqata keçiriləcək.***

"Unikal" xəbər verir ki, Azərbaycan Su İdman Növləri Federasiyası turnirdə 12 nəfərlik heyətlə mübarizə aparacaq.

Akademik avarçəkmədə İsmayıl Şirinov, Sabit Abdullayev, Məhəmməd Həsənov, İsabala Dadaşzadə, ölkəmizi təmsil edəcək. Fəxri Sadıqlı, Vaqif Mustafazadə və Rüstəm Əsgərov kanoe qayığında mükafatçılar sırasına düşməyə çalışacaq.

Kayak növündə isə İvan Vorobjanski, Qiyas Əhmədov, Tengiz Qaqnidze, Elmir Tərverdiyev və Mustafa Vəlizadə heyətdə yer alacaq.

Komandaya məşqçilər Tofiq Bayramov və Fərid Saadov rəhbərlik edəcək.

# Portuqaliya millisinin yeni baş məşqçisi bilindi



***Portuqaliya millisinin yeni baş məşqçisi məlum olub.***

QOL.az xəbər verir ki, bu barədə tanınmış insayder Fabritsio Romano məlumat yayıb.

O, komandanın Jorje Jezusa tapşırılacağını bildirb. Jesus bu vəzifədə Roberto Martinezi əvəz edəcək.

Qeyd edək ki, Jorje Jezusun son iş yeri "Əl Nəsr" olub. O, bu ilin may ayında Səudiyyə Ərəbistanı klubundan ayrılıb. 71 yaşlı mütəxəssis indiyə qədər bir çox klubları çalışdırsa da, ilk dəfə milli komandanın baş məşqçisi olacaq.

# Azərbaycanı stolüstü tennis üzrə Avropa çempionatında 10 idmançı təmsil edəcək

***Azərbaycanın stolüstü tennisçiləri Portuqaliyanın Qondomar şəhərində keçiriləcək Avropa çempionatında iştirak edəcəklər.***

Azərbaycan Stolüstü Tennis Federasiyasından "Unikal"a bildirilib ki, yığma artıq yarışın keçiriləcəyi ölkəyə yollanıb.

Millinin heyətində Adil Əhmədzadə, Rüstəm Hacılı, Tunar Bağırov, Onur Quluzadə, Ruslan Kərimov, Mərziyyə Nurmətova, Aylin Əsgərova, Şəbnəm Mansurova, Xədicə Babazadə və Yağmur Məmmədli medal uğrunda mübarizə aparacaqlar.

İyulun 10-dan 19-dək davam edəcək çempionatda beynəlxalq dərəcəli hakim Zaur Mikayılov da ədalət təmsilçiləri arasında yer alacaq.

# "Beşiktaş" "Bavariya"dan qapıçı aldı

***"Beşiktaş" qapı xəttini iki oyunçu ilə gücləndirib.***

QOL.az xəbər verir ki, "qara qartallar" "Bavariya"dan Aleksandr Nübel, "Başakşəhər"dən Doğan Alemdarı transfer edib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Hər iki futbolçu ilə 3 illik müqavilə imzalanıb.

Xatırladaq ki, "Beşiktaş" ötən gün Salih Özcanın transferini də açıqlamışdı.